www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 15 fevral 2019-cu il Cümə № 36 (7206) Qiyməti 60 qəpik

**Xəbər**

## 30 min iş yeri bu adamlar üçün açılacaq - təfsilat

yazısı səh.5-də

**Gündəm**

### Bu gün Münhen Təhlükəsizlik Konfransı başlayır




Dünyanın təhlükəsizliyi üçün narahatlıq yaradan 10 problemin sırasına Dağlıq Qarabağ münaqişəsi daxil edilməyib

yazısı səh.6-da

### Bayılda köçkün ailələri aksiya keçirdilər: "Evimizi tərk etmirik"

yazısı səh.14-də

### Məşhur biznesmenin müəmmalı ölümündən 5 ay ötdü

yazısı səh.4-də

### Milli Şuranın mitinq qərarı-aksiyalarla bağlı sanksiyalar nə qədər davam edəcək?

yazısı səh.5-də

### Hökumətin qəvi düşməni - monopolistlər...

yazısı səh.4-də

### İlham Əliyevin və Ərdoğanın dediyi həqiqət: "Dünya 5-dən böyükdür"

yazısı səh.9-da

### Ali məktəblərdə Prezident təqaüdü artırıldı

yazısı səh.2-də

### Ölkədən "beyin köçü": kimlər hara və niyə gedir?

yazısı səh.7-də

### Azərbaycan "neft bosları" sırasına daxil ola bilər

yazısı səh.10-da

### İranı qana bulayan "Ədalət Ordusu" və terrorçuların arxasındakı güclər

yazısı səh.12-də

### Ali məktəblərdə 70-ə yaxın ixtisas birləşdirildi -rəsmi qərar

yazısı səh.14-də

# ABŞ VƏ RUSİYA ERMƏNİSTANDA TOQQUŞUR - VAŞİNQTON İRƏVANA QARŞI BƏYANAT VERDİ

Erməni hökumətinin Suriya rejiminə dəstəyi və Rusiyaya artan reveransları Ağ Evi hövsələdən çıxardı; Dövlət Departamenti Paşinyan hökumətini zülmə və zalıma dəstəkdə suçladı; İrəvandan qorxaq reaksiya gəldi...




yazısı səh.8-də

# Tiflisdən Bakıya "Rusiyadan qaz alıram" şantajı

Gürcüstan hökuməti yenə "Şahdəniz" konsorsiumundan deyil, SOCAR-dan daha çox qaz qoparmağa çalışır

yazısı səh.10-da



Sahil Babayev

### Nazir açıqladı: əmək pensiyalarının minimum məbləği artırılır

yazısı səh.3-də



### Yeltsin niyə Heydər Əliyev hakimiyyətini devirmək istəyirdi-tarixə baxış

yazısı səh.7-də



Patriarx Kiril

### Rus patriarxın Quba məzarlığını ziyarəti-soyqırımı tanıtmaq üçün nə etməli...

yazısı səh.3-də



## Prezident Mahmud Məmməd-Quliyevi mükafatlandırdı

**Prezident İlham Əliyev xarici işlər nazirinin müavini Mahmud Məmməd-Quliyevin 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.**

Virtualaz.org bildirir ki, sərəncama əsasən, Azərbaycan Respublikasının xarici siyasətinin həyata keçirilməsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Mahmud Əhməd oğlu Məmməd-Quliyev 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib.

Qeyd edək ki, Mahmud Məmməd-Quliyev 1949-cu il fevralın 15-də Gəncə şəhərində anadan olub. Bu gün onun 70 yaşı tamam olur.

## Ali məktəb tələbələri üçün Prezident təqaüdü artırıldı

**Prezident İlham Əliyev "Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 sentyabr tarixli 564 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.**

Modern.az xəbər verir ki, fərmana əsasən, ölkəmizdə təhsil sahəsində ən yüksək nəticələr əldə etmiş tələbələrə dövlət qayğısını gücləndirmək məqsədilə Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün məbləği 210 (iki yüz on) manat müəyyən edilib.

Bu fərman martın 1-dən qüvvəyə minir.

Xatırladaq ki, əvvəl Prezident təqaüdü 185 (yüz səksən beş) manat olub.


## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**

## Abunə daha sərfəlidir - "Yeni Müsavat" abunə kampaniyasını davam etdirir



"Yeni Müsavat" qəzeti oxucularına bəyan edir ki, abunə yazılmaqla qəzeti daha sərfəli qiymətlərlə əldə edə bilərlər.

Köşklərdən alınan qəzetin bir nüsxəsi 60 qəpikdir. Abunə ilə qəzetin bir nüsxəsi isə sizə daha ucuz - **48 qəpiyə** başa gələcək.

**Aylıq abunə - 12 AZN**
**3 aylıq - 36 AZN**
**6 aylıq - 72 AZN**

Abunə yazılmaq üçün yaşadığınız ərazidə istənilən poçt şöbəsinə müraciət edə bilərsiniz.

Eyni zamanda Poçt Daşıma Mərkəzinin baş ofisi ilə: **(012) 598-49-55** nömrəsi ilə əlaqə saxlaya bilərsiniz.

Bundan başqa "Qaya" Mətbuat Yayımı ilə də abunə yazıla bilərsiniz.

**Əlaqə üçün telefon: 012-565-67-13, 012-564-48-96**


# Soçidə üçtərəfli sammit: Putin, Ərdoğan və Ruhani görüşdü

### Putin Türkiyə və İranla əməkdaşlığa vurğu etdi, Türkiyə Suriya şərtlərini açıqladı

**Fevralın 14-də Soçidə Rusiya, Türkiyə və İran prezidentləri arasında sayca 4-cü sammit baş tutub. Üçtərəfli görüşdən əvvəl Rusiya və Türkiyə prezidentləri heyətlərinin iştirakı ilə görüş keçirib.**



Putin bildirib ki, üçtərəfli sammit Suriyadakı münaqişənin həlli istiqamətində yeni hərəkətverici güc olacaq. Putin deyib ki, sayca 4-cü toplantı Suriyada vəziyyətin normallaşması prosesinə, həmçinin döyüş cəbhəsində, həm də suriyalılar arasında dialoqun təmin olunması məqsədilə göstərilən cəhdlərdə yeni mərhələ olacaq.

Putin Ərdoğana xitab edərək, "Cənab prezident, sizinlə bərabər çox işlər gördük və çox böyük məsafə qət etdik" deyib və əlavə edib ki, bu, heç də asan olmayan proses hələ də davam edir.

Türkiyə prezidenti Ərdoğan deyib ki, hazırda onlar İdlib probleminin həll olunması üçün çalışır. Prezident deyib ki, PYD/YPG Fəratın şərq sahilindən təmizlənmədikcə, Suriyanın ərazi bütövlüyü təmin oluna bilməz. Ərdoğan deyib ki, Türkiyənin milli təhlükəsizlik narahatlıqlarını aradan qaldıracağı halda, Suriyada "təhlükəsizlik bölgəsi" fikrini rəsmi Ankara da dəstəkləyir. O, bu ideyaya Rusiyanın da müsbət yanaşmasından məmnuniyyət duyduqlarını deyib.

**O, Suriyanın yeni konstitusiyasını hazırlayacaq komitənin yaradılması ilə bağlı əngəlləri ortadan qaldırmağa çağırıb. Sitat: "BMT-nin ehtiyatlılığını diqqətə almaqla komitənin formalaşdırılmasını qısa müddətdə başa çatdıra bilərik".**

Ərdoğan Rusiya və Türkiyə ordusu arasında Suriyada önəmli fəaliyyətlərin olduğunu və bu əməkdaşlığın davam etdiriləcəyinə ümid etdiklərini bildirib. O əlavə edib ki, İdlibdəki radikal qruplarla bağlı problemin həlli, eləcə də Rusiyanın Tartusdakı Xmeymim hərbi hava bazasının radikalların hücumlarından qorunması üçün birgə əməkdaşlıq davam edir.

Ərdoğan bildirib ki, Rusiya və Türkiyə komandanlığı Suriyada birgə patrul həyata keçirilməsi ilə bağlı razılıq əldə edib. Türkiyə prezidenti deyib ki, 2018-ci il 17 sentyabr Soçi anlaşmasına əsasən İdlibdə silahdan təmizlənmiş bölgədə Türkiyənin dronlar vasitəsilə apardığı hava kəşfiyyatı nəticəsində bölgədə ağır silahların qalmadığına əmin olublar.

Qeyd edək ki, Soçidə Ərdoğan və İran prezidenti Həsən Ruhani arasında da ikili görüş keçirilib. Daha sonra isə Rusiya və İran prezidentləri arasında heyətlərin iştirakı ilə görüş keçirilib. Rusiya prezidenti bildirib ki, İran və Rusiya arasında əməkdaşlıq artmaqda davam edir. Putin İrana Suriya münaqişəsinin həllində verdiyi dəstəyə görə təşəkkür edib. Sitat: **"Birlikdə Suriya böhranının həlli üçün çalışırıq. Ancaq hələlik bütün problemlər həll olunmayıb".** İranla birgə nüvə fəaliyyətlərini də həyata keçirdiklərini deyən Putin Soçi toplantısının əməkdaşlığı daha da artıracağına ümid etdiyini əlavə edib.

Türkiyə prezidenti Soçidən istəklərini açıq şəkildə bildirib. Ankara Suriya-Türkiyə sərhədində 30 kilmetrlik təhlükəsizlik zolağı, İdlibdə atəşkəsin davam etməsi və birgə patrulun aparılması. Bu həm də bir mənada Amerika sonrası Suriyada təşəbbüsün Rusiya-Türkiyə-İran "üçlüyünün" əlinə keçməsini göstərir. Təbii ki, bütün tərəflər anlaşa bilsələr. Görünən odur ki, Rusiya Türkiyə ilə anlaşmağa meyllidir.

**Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

## Əfv Məsələləri Komissiyasının növbəti iclası

**Azərbaycan Prezidenti yanında Əfv Məsələləri Komissiyasının növbəti iclası keçirilib.**

İclasda əfvlə bağlı müraciətlərə baxılması nəzərdə tutulub.

Komissiyaya 1000-dən artıq müraciətin daxil olduğu bildirilir.

Komissiyanın ötən iki iclasında 200-ə qədər müraciətə baxılıb.

"Trend" xatırladır ki, Əfv Məsələləri Komissiyasının ötən il yanvarın sonlarından mayın ortalarına qədər davam edən iclaslarında 1200-dən artıq müraciətə baxılmışdı. İclasların ardınca, 2018-ci il mayın 24-də prezident İlham Əliyev məhkum edilmiş bir sıra şəxslərin Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə əfv olunması haqqında sərəncam imzaladı. Əfv sərəncamı ümumilikdə 634 nəfərə şamil olundu.



## Sınaq imtahanında 4 nəfər yerinə başqasını göndərdi

**Fevralın 10-da keçirilən sınaq imtahanında 4 nəfərin başqasının yerinə imtahana girmək cəhdi müəyyən olunub. Bu haqda Dövlət İmtahan Mərkəzindən məlumat verilib.**

Dövlət İmtahan Mərkəzi abituriyentlərin və onların valideynlərinin nəzərinə çatdırır ki, "Face Recognition" (üzün tanınması) texnologiyasına əsaslanan proqram texniki vasitə ilə belə hallar asanlıqla aşkara çıxarılır. İmtahana giriş zamanı proqram-texniki vasitə iştirakçının kamera vasitəsilə real vaxt rejimində götürülmüş şəklini onun bazadakı şəkli ilə müqayisə edir və şəkillərin eyni şəxsə aid olub-olmadığı barədə dərhal məlumat verir.

Xatırladaq ki, fevralın 17-də keçiriləcək ilk-peşə ixtisas təhsili müəssisələrinin buraxılış, dövlət qulluğuna və daha sonra magistraturaya qəbul imtahanlarında da bəzi binalarda yeni texnologiyanın imkanlarından istifadə olunacaq.

## Vergi Ombudsmanı İnstitutu yaradılacaq

**Sahibkarların hüquqlarını qoruyan yeni və daha effektiv mexanizmlərin yaradılması istiqamətində araşdırmalar aparılıb və inkişaf etmiş ölkələrin qabaqcıl təcrübəsi əsas götürülərək Azərbaycanda Vergi Ombudsmanı İnstitutunun yaradılması qərara alınıb.**

Virtualaz.org bildirir ki, bunu vergilər naziri Mikayıl Cabbarov nazirlikdə 2018-ci ilin yekunlarına və 2019-cu ildə vergi orqanları qarşısında duran vəzifələrə həsr edilmiş geniş tərkibli kollegiya iclasında çıxışı zamanı deyib.

Vergi inzibatçılığının rəqəmsallaşdırılması prosesinin davam etdiriləcəyi, vergi xidmətləri və vergi nəzarətində yeni innovativ texnologiyaların tətbiqi istiqamətində tədbirlərin daha da genişləndiriləcəyini qeyd edən M.Cabbarov vergi əməkdaşlarının, xüsusilə audit sahəsində çalışanların bilik və bacarıqlarının artırılması, fəaliyyətinin qiymətləndirilməsi üçün yeni mexanizmin həyata keçirilməsinin vacibliyini də diqqətə çatdırıb.

Mikayıl Cabbarov bu il vergi orqanları qarşısında duran vəzifələrin icrasının təmin edilməsi, vergi orqanlarının fəaliyyətinin müasir tələblərə cavab verən səviyyədə qurulması, nazirliyin bütün struktur vahidlərinin və bölmələrinin mövcud potensialının bu vəzifələrin icrasına səfərbər edilməsi ilə bağlı konkret tapşırıqlar verib.

## Hava yenə dəyişəcək

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamenti hava şəraitinin dəyişəcəyi ilə bağlı xəbərdarlıq edib.**

Departamentdən bildirilib ki, Bakıda və Abşeron yarımadasında fevralın 15-dən 16-na keçən gecədən başlayaraq fevralın 17-si səhərədək havanın arabir yağıntılı olacağı gözlənilir. Bəzi yerlərdə intensiv olacağı ehtimalı var. Şimal-qərb küləyi arabir 15-20 m/s-dək güclənəcək.

Azərbaycanın rayonlarında fevralın 14-ü axşamdan 17-si gündüzədək havanın qeyri-sabit keçəcəyi, arabir yağış, dağlıq və dağətəyi rayonlarda qar yağacağı gözlənilir. Bəzi yerlərdə intensiv olacağı ehtimalı var. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir 18-23 m/s-dək güclənəcək.

YENİ MÜSAVAT
N 36 (7206) 15 fevral 2019

**Azərbaycanda əmək pensiyalarının minimum məbləği artırılır. Bu barədə əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev fevralın 14-də keçirdiyi mətbuat konfransında məlumat verib. Onun sözlərinə görə, bu artımın təşəbbüskarı ölkə prezidentidir və artıq onun Milli Məclisə göndərdiyi müvafiq qanun layihəsi komitə tərəfindən müzakirə olunaraq plenar iclasa tövsiyə edilib. Layihə fevralın 19-da keçiriləcək plenar iclasda müzakirəyə təqdim ediləcək.**

# Nazir açıqladı: əmək pensiyalarının minimum məbləği artırılır

## Sahil Babayev: "Özünüməşğulluq proqramında qiymət artımına yol verilməsi qeyri-mümkündür"



"Heç bir vətəndaşa bir heyvanın, yaxud iki heyvanın 5-7 min manata alınmasına dair sənəd verilməyib, verilə də bilməz"

Martın 1-dən qüvvəyə minən artım nəticəsində 233 min nəfər pensiyaçının aldığı məbləğ yüksələcək. Onlardan 9 min nəfərin pensiyasında 93 faiz (75 manat), 26 min nəfərin pensiyasında 30 faiz (37 manat), 74 min nəfərin pensiyasında 16 faiz (27 manat) və s. artım özünü göstərəcək. Artımın edilməsi üçün nazirlik yanında Dövlət Sosial Müdafiə Fondundan cari ilin 10 ayı (mart-dekabr) üzrə 41 milyon manat, illik isə 49 milyon manat əlavə vəsait yönəldiləcək. Ümumilikdə pensiyasında artım olanların 140 min nəfəri əlilliyə görə pensiya alanlardır.

Nazirin dediyinə görə, bu artımdan sonra alıcılıq qabiliyyəti indeksi (PPP) üzrə ölkəmiz MDB məkanında ilk iki yeri bölüşür.

**Jurnalistlərin suallarını cavablandıran nazir bildirib ki, sosial müavinətlərin artımı məsələsinə müəyyən prosedurlardan sonra baxıla bilər:** "Hazırda bizdə sosial müavinətlərlə bağlı işlər aparılır. Bildiyiniz kimi, bizdə 80-dək sosial müavinət var, onlarla bağlı işlər başa çatdıqdan sonra artım barədə hansısa qərar verilə bilər".

**"Yeni Müsavat"ın sualını cavablandıran S.Babayevin sözlərinə görə, ölkədə həyata keçirilən "Özünüməşğulluq proqramı" ilə bağlı narazılıqları ciddi adlandırmaq düzgün deyil:** "Bu sahədə ciddi narazılıq olduğunu söyləmək üçün əsas yoxdur. 30 min baş iribuynuzlu və xırdabuynuzlu heyvan paylanıb vətəndaşlara. Cəmi 1 faizə qədəri üzrə narazılıq var. Bunu əsas götürüb yerdə qalan 99 faizə ciddi narazılıq demək yanlışdır. Müraciətlərin böyük əksəriyyəti 2-3 ay sonra edilib. Onların hər birini biz araşdırmışıq. Heyvanları alarkən vətəndaş öz imzası ilə təsdiq edir ki, keyfiyyətdən razıdır, aktivi razılıqla qəbul edir. İkincisi, heyvanların üzərində onların sağlamlığına dair baytarlıq arayışı da təqdim olunur. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi dövlət satınalma qaydalarına uyğun olaraq bir şirkətlə müqavilə imzalayıb, bu işləri həvalə edib ona. O şirkətə ödənişlər yalnız vətəndaşın yazılı razılığı, imzaladığı akt və müvafiq videoçəkiliş olmadan edilmir".



**S.Babayev bildirir ki, heyvanların 5 min manata rəsmiləşdirilməsi barədə yayılan məlumatlar da əsassızdır:** "Heç bir vətəndaşa bir heyvanın, yaxud iki heyvanın 5-7 min manata alınmasına dair sənəd verilməyib, verilə də bilməz. Çünki bir iribuynuzlu heyvanın - inəyin qiyməti vergilər, digər ödəniş və xərclər də daxil olmaqla 1800 manatdan yuxarı deyil. Bir heyvanın real alış qiyməti isə 1300-1400 manatdır. Bu, bazar qiymətindən ucuzdur. Hər hansı bir satınalmamızda qiymət artımına yol verilməyib. Heyvandarlıq üzrə aktivlər ötənilki qiymətlərdən 13-15 faiz, avadanlıqlar üzrə isə 22-25 faiz ucuz alınıb".

**Nazirin dediyinə görə, manipulyasiya etmək istəyənlər də var:** "Müəyyən vətəndaşlar var ki, imkanları yaxşıdır, mal-heyvanı da var, amma yenə proqrama müraciət edir. Belə halları araşdırıb real vəziyyəti öyrənməklə 800-dək çox şəxsi proqramdan kənarlaşdırmışıq. Onların böyük əksəriyyəti müxtəlif iddialarla mətbuat orqanlarına, müxtəlif dövlət qurumlarına müraciət edirlər. Olur ki, qulaqları birkalı heyvan alan vətəndaş iki aydan sonra tamam fərqli heyvanı gətirir ki, mən bundan narazıyam. Yaxud heyvana yaxşı baxa bilmir, o da tələf olur. Yəni bizə edilən bütün müraciətləri araşdırmışıq. Həqiqətən aşağı keyfiyyətli olan aktivləri yeniləri ilə əvəzləmişik. Buna yol verən Məşğulluq Mərkəzi əməkdaşları intizam məsuliyyətinə cəlb olunub, cəzalandırılıb".

**S.Babayev bu ildən özünüməşğulluq proqramına cəlb olunan hər bir vətəndaş üçün elektron kabinet yaradılacağını bildirir:** "Məşğulluq sistemində özünüməşğulluq altsistemi yaradılacaq. Orada proqram çərçivəsində aktiv alan hər bir vətəndaşın kabineti yaradılacaq. Hər hansı narazılıq bildirilən zaman o kabinetdəki məlumatlar əsasında vətəndaşın nə aldığı, neçəyə aldığı, video-foto çəkilişlər, aktiv almazdan əvvəl keçdiyi təlim, hazırladığı biznes planla tanış olmaq mümkün olacaq. Yəni kabinetdəki məlumatlar vətəndaşın razılığı əsasında ictimaiyyət üçün açıq olacaq".

**Saxta əlillik alınması halları ilə bağlı danışan S.Babayevin sözlərinə görə, indiyədək 1300 belə fakt aşkarlanıb:** "Əlillik təyinatı ötən ilin birinci və dördüncü rüblərini müqayisə etdikdə 60 faiz, o cümlədən birinci qrup əlillik təyinatı 70 faiz azalıb. İndiki təyinat sayını ölkə üzrə standartlara uyğun hesab etmək olar". Nazir onu da bildirir ki, saxta əlillik təyinatında iştirakı olan günahkar şəxslər ləğvetmə anınadək ödənilən 1 milyon manata qədər vəsaiti büdcəyə bərpa ediblər.

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**
**Fotolar Elçin Əkbərindir**

# Rus patriarxın Quba məzarlığını ziyarəti-soyqırımı tanıtmaq üçün nə etməli...

## Deputatlar Kirilin mövqeyini Azərbaycan siyasətinin uğuru kimi qiymətləndirir



**Azərbaycanda rəsmi səfərdə olan bütün Rusiyanın patriarxı Kiril qeyri-rəsmi olaraq Qubaya səfər edib. Patriarx Quba şəhərində ermənilər tərəfindən vəhşicəsinə öldürülən dinc insanların uyuduğu kütləvi məzarlıqda - Soyqırım Memorial Kompleksində olub. Patriarx oradakı "Xatirə kitabına" ürək sözlərini yazıb: "Qətliam edilmiş günahsızların əbədi xatirəsinə. Qohumlarına, yaxınlarına və öz xalqının faciəsini yadda saxlayan yeni nəslə dərin hüznlə başsağlığı veririəm.+Patriarx Kiril 9.02.2019".**

Rusiya dini liderinə məzarlıq barədə geniş məlumat verilib. Bildirilib ki, 1918-ci ildə ermənilərin Quba qəzasına basqını zamanı ümumilikdə 16 mindən çox dinc əhali qətlə yetirilib, evlər dağıdılıb, məscidlər yandırılıb. Patriarx Kirilə məlumat verilib ki, bu kütləvi məzarlıq 2007-ci ildə təsadüfi qazıntı zamanı aşkar edilib, arxeoloji qazıntı zamanı burada cavan, yaşlı, uşaq, qadın və kişilərin vəhşicəsinə güllə-baran edildiyi məlum olub.

Eşitdiklərindən və görüntülərdən dəhşətə gələn rus patriarx dinc insanların xüsusi amansızlıqla öldürülməsindən çox sarsıldığını bildirib.

Bəs 31 mart hadisələrinin dünyada soyqırım kimi tanıdılması üçün hansı addımlar atılmalıdır?

**Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, deputat Fərəc Quliyev bunu uğur kimi dəyərləndirdi:** "Qonşu dövlətlərin, xüsusilə Rusiyanın mövqeyində Azərbaycana qarşı münasibətdə yaxşıya doğru dəyişikliklərin olması bizim uğurumuzdur. Biz istəyirik ki, qonşularla yaxın münasibətlər yürüdək. Bizdən asılı olmayan səbəblərdən yaranan problemlərin də aradan qaldırılmasına çalışırıq. Ermənistan istisna olmaqla, heç bir qonşu ölkə ilə problemimiz yoxdur. Rusiya böyük dövlətdir və bu dövlətlə münasibətlərin məcraya düşməsi vacibdir. Bəzi Duma üzvlərinin Dağlıq Qarabağa səfərləri, verdikləri




məsuliyyətsiz bəyanatlar münasibətlərə xeyli dərəcədə kölgə salır. Amma patriarxın bu səfəri və ortaya qoyduğu mövqe ictimaiyyət tərəfindən müsbət qarşılanır, iki ölkənin münasibətlərinə ciddi təsir edir. Kiril sıradan birisi deyil. Onun belə mövqeyi gələcəkdə də bizim üçün çox müsbətlər gətirə bilər. Hesab edirəm ki, Kirilin ölkə başçısı ilə görüşünün də məsələlərə xeyli təsiri oldu. Azərbaycan həqiqətlərinin dünyada tanıdılmasında bu faktordan da istifadə etmək lazımdır. Düşünürəm ki, Rusiyanın içərisində erməni xislətini tanıtmaq daha mühümdür. Kirilin mövqeyini Azərbaycan siyasətinin uğuru kimi qiymətləndirirəm. Rus patriarxına təşəkkür edirik ki, məsələlərə obyektiv baxır".

**Politoloq, deputat Elman Nəsirov Kirilin ziyarətindən bir sıra nəticələrin çıxdığını söylədi:** "Kirilin Quba məzarlığında olması və orada olarkən mart soyqırımı ilə bağlı sarsıldığını bildirməsi buradan bir sıra nəticələr çıxarmağa əsas verir. Rusiyanın təxminən 150 milyona yaxın əhalisi var. Rus patriarxın Quba məzarlığını ziyarəti həm də rusiyalı dindarların patriarxın mövqeyini müdafiə etmələri anlamına da gəlir. Nəzərə alaq ki, dünyada çoxsaylı ölkələrdə pravoslav dini mövcuddur. Kirilin mövqeyi həm də dünyada pravoslav dininin daşıyıcıları üçün də bir mesajdır. Bu, mart soyqırımına beynəlxalq siyasi hüquqi qiymət verilməsi məsələsini də aktuallaşdırır. Qarşıdan 31 mart soyqırımının növbəti ildönümü gəlir. Biz bunu təbliğat-təşviqat kampaniyasının tərkibinə daha geniş şəkildə daxil edə bilərik. Eyni zamanda Xocalı soyqırımı bütün dünyanın gözü qarşısında törədilib. Kirilin ziyarətinin soyqırım ərəfəsinə təsadüf etməsi Xocalı faciəsinin bütün dünyada tanıdılması yönündəki fəaliyyətə də bir stimul verə və o proseslərin genişlənməsinə şərait yarada bilər. Çünki dünyanın artıq 10-dan çox ölkəsinin parlamenti bu soyqırımı tanıyıb. Ona görə də Kirilin bu mövqeyini biz bütövlükdə azərbaycanlılara qarşı ermənilərin törətdiyi soyqırımın dünyada tanıdılması istiqamətində həlledici addımlardan biri kimi dəyərləndirməli və bu istiqamətdə fəaliyyətimizi gücləndirməliyik. Çünki burada söhbət xristian dünyasından və o dünyanın mühüm bir tərkib hissəsi olan pravoslav kilsəsi və onun rəhbərinin mövqeyindən gedir. Bunlar bizim üçün olduqca vacib məsələlərdir. Hesab edirəm ki, indiki halda bu məsələdən maksimum yararlanmalıyıq. O ölkələrdə ki pravoslav dini kifayət qədər yayılıb və təsir imkanları böyükdür, biz bu məsələləri həmin ölkələrdə qabardıb, Xocalı və 31 mart soyqırımları ilə bağlı ictimai fikrə ciddi təsir edə bilərik".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 36 (7206) 15 fevral 2019

# Hökumətin qəvi düşməni - monopolistlər...

## İqtisadçı ekspertlər inhisarçılıqdan qurtulmağın yolunu göstərdilər - işlək Rəqabət Məcəlləsinin qəbulu...

**Hazırda ölkədə sosial-iqtisadi sahədə islahatlar aparılır. Həm əmək haqqı və pensiyaların artırılması, həm də iqtisadiyyatın inkişafı ilə bağlı müəyyən addımların atılması cəmiyyət tərəfindən də müsbət qarşılanır. Xalqın rifahının yüksəldilməsi üçün müəyyən işlər görülür, vətəndaş-hökumət münasibətlərində yeni bir mərhələnin başlandığı deyilir.**



Lakin iqtisadi inkişafı əngəlləyən əsas problemlərdən biri kimi monopoliyanın aradan qaldırılmasına da ehtiyac var. Əks halda, bu faktor aparılan islahatların effektivliyinə təsir göstərəcək. İqtisadçı ekspertlər də hesab edir ki, monopoliya aradan qaldırılmasa, nə qiymətlərdəki artım tempinin tənzimlənməsi, nə də azad sahibkarlıq mühitinin formalaşması mümkün olmayacaq.

### Bəs monopoliyanın kökü nə zaman kəsiləcək?

**Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vahid Əhmədov vurğuladı ki, son vaxtlar dövlət başçısının iqtisadi və sosial sahədə atdığı addımlar cəmiyyət tərəfindən də müsbət qarşılanır:** "Həm Beyləqan rayonuna rəsmi səfəri, həm müsahibəsində səsləndirdiyi fikirlər, minimum əmək haqqının artırılması ilə bağlı qərar, daha öncə şəhid ailələri ilə keçirdiyi görüş və verdiyi qərarlar hamısı müsbət addımlardır. İqtisadi inkişafın əsas şərtlərindən biri olan rəqabətli mühitin formalaşması ilə bağlı da bir çox addımlar atılıb. Artıq gömrük sistemində əvvəlkindən daha çox şəffaflıq var, korrupsiya halları aradan qaldırılıb. Monopoliyanın aradan qaldırılması üçün də işlər aparılır. İstənilən şəxs dövlət rüsumunu ödəməklə gömrükdən mal gətirə bilər. Gömrük Komitəsində hazırda açıq əməliyyatlar həyata keçirilir. Şəffaflıq təmin olunub. Doğrudur, vergilər müəyyən qədər yüksəkdir. İdxal vergiləri ümumilikdə 37-38 faizə çatır, bu da müəyyən problemlər yaradır".

**V.Əhmədov da vurğuladı ki, bütün bu görülən işlərə baxmayaraq, monopoliya məsələsi hələ də gündəmdədir:** "Çünki bəzi məmurlar hələ də monopoliyadan əl çəkmək istəmir, çalışırlar ki, hər yerdə bunu qoruyub saxlasınlar. Ona görə də biz Rəqabət Məcəlləsinin qəbul olunmasını istəyirik. Hazırda həm Prezident Administrasiyasında, həm də İqtisadiyyat Nazirliyində Rəqabət Məcəlləsinin üzərində işləyirlər. Biz bu məcəllənin qəbul olunması ilə bağlı məsələ qaldırmışıq ki, monopoliyanın qarşısı müəyyən qədər alınsın. Rəqabət mühiti olmalıdır ki, sahibkarlar rahat işləyə bilsinlər. Ancaq hələlik monopoliya bəzi sahələrdə qalmaqdadır".

**Monopolist məmurlarla mübarizə tədbirlərinə gəlincə, V.Əhmədov bildirdi ki, monopoliya uzun müddətdir Azərbaycanda var və onu yaradanlar əlində inzibati gücü olan insanlardır:** "Monopoliya yaradan əsasən o insanlar idi ki, əllərində külli-ixtiyar var idi, müəyyən orqanlar təsir etmək imkanı çox böyük idi. Ancaq indi tədricən müəyyən azadolmalar gedir, yeni kadrlar gəlir. Mən bu yeni kadrlarla görüşmüşəm, prezidentin əsas tapşırığı o olub ki, əhaliyə xidmət edin, onların problemlərinin həllinə diqqət ayırın. Əhali ilə məmurlar arasında əlaqə yüksək səviyyədə qurulsun. Diqqət etdinizsə, prezident Beyləqan səfərində əhali ilə necə səmimi ünsiyyət qurdu. Bu, məmurlar üçün də bir örnəkdir. Onlar anlamalıdırlar ki, ölkədə başqa bir siyasi-iqtisadi format meydana gəlir və bu formata keçid etməlidirlər. Yeni tendensiya ilə ayaqlaşmaq lazımdır. Mən hesab edirəm ki, monopoliya tədricən tamam sıradan çıxacaq. Son vaxtlar süni qiymət artımı da müşahidə edilir, monopolist iş adamları danışıqlar apararaq qiyməti artırmağa cəhd edirlər. Ancaq aparılan islahatlar bütün bu məsələləri öz yoluna qoyacaq".

**İqtisadçı ekspert Qalib Toğrul da "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Azərbaycanda idxalda monopoliya tam olmasa da, müəyyən qədər aradan qaldırılıb:** "Amma bazarda monopoliyanın müəyyən elementləri hiss olunur. Azərbaycan bazarı tam azad və rəqabətin formalaşdığı bir bazar deyil. Bunun da bir neçə səbəbi var. Bu problemi aradan qaldırmağın və azad rəqabət mühiti formalaşdırmağın birinci addımı Rəqabət Məcəlləsinin qəbul olunmasıdır. Azərbaycanda rəqabət və antiinhisar qanunvericiliyi ötən əsrin sonlarında qəbul olunmuş qanunverici aktlardır. Onların da demək olar ki, hamısı ruscadan tərcümə olunub, olduğu kimi qəbul edilib. Bu qanunların hazırda o şəkildə tətbiqi mümkün deyil. O baxımdan ilk növbədə bütün bu qanunların əvəzində Rəqabət Məcəlləsi qəbul olunmalıdır. Rəqabət Məcəlləsinin qəbulu 2016-2018-ci illərdə Açıq Hökumətin təşviqi ilə bağlı Milli Fəaliyyət Planında nəzərdə tutulmuşdu. Çox təəssüf ki, bu milli fəaliyyət planı öz müddətini başa vursa da, bu məcəllə qəbul olunmadı. Rəqabət Məcəlləsi 2017-ci ildə Milli Məclisdə iki oxunuşdan keçsə də, üçüncü oxunuşdan keçməyib. Onun qəbulu bu prosesdə dayanıb. Mən bu məcəllənin mətni ilə tanışam və hesab edirəm ki, indiki halda artıq yeni məcəllə işlənilməlidir. Onun hazırlanmasına vətəndaş cəmiyyəti və müstəqil ekspertlər də cəlb olunmalıdır".

**Q.Toğrul vurğuladı ki, burada əsas məsələlərdən biri rəqabət mühitini tənzimləyən qurumun müstəqil olmasıdır:** "Hazırda bu məsələ İqtisadiyyat Nazirliyinin tərkibində olan dövlət qurumu vasitəsilə tənzimlənir. Ancaq çox təəssüf ki, həmin qurum rəqabətdən daha çox istehlakçı hüquqlarının tənzimlənməsi ilə məşğul olur. Biz həmin qurumun saytına daxil olarkən də hər zaman görürük ki, orada rəqabətlə bağlı her hansı fəaliyyət yoxdur. Əvvəllər rəqabət qanunvericiliyinin pozulması halları ilə bağlı hesabatlarda daha çox məlumatlara rast gəlirdik. Ancaq çox təəssüf ki, o hesabatların da məzmunu çox kasadlaşıb və məlumatlar məhdudlaşdırılıb. O baxımdan birinci məsələ Rəqabət Məcəlləsinin qəbul olunması, ikinci isə onu tənzimləyən qurumun müstəqil formalaşdırılmaldır. Elə bir qurum olmalıdır ki, müstəqil yanaşma, müstəqil araşdırma ortaya qoysun. Başqa formada ölkədə rəqabət mühiti formalaşdırmaq mümkün olmayacaq. Hazırkı qanunvericilik imkanları da bunu təmin etmir".

❑ **Nərgiz LİFTİYEVA,**
**"Yeni Müsavat"**

# Məşhur biznesmenin müəmmalı ölümündən 5 ay ötdü

## İrad Hacıyevin anasının ittihamları cavabsız qalıb; həyat yoldaşı susur...

**"İrşad Telekom" MMC-nin rəhbəri, 40 yaşlı İrad Hacıyevin müəmmalı ölümünün 5 ayı tamamlandı. Bu müddət ərzində üzə çıxan məlumatlar İrad Hacıyevin həyatdan öz xoşu ilə ayrılmadığı qənaətini formalaşdırır. Hələlik istintaqın bu müəmmalı ölüm işi ilə bağlı yekun nəticəsi haqda məlumat yoxdur.**



İrad Hacıyevin anası Züleyxa Hacıyeva oğlunun ölümündən sonra özünün facebook səhifəsində oğlunun öldürülə biləcəyi ehtimalını qətiləşdirən məlumatlar paylaşıb. Züleyxa Hacıyeva oğlunun ölümünün 5-ci ayının tamamında yazır: "Bu gün mənim balamın 5 ayı tamam olur. Mənim müalicəmi yarımçıq qoydun, ay bala. İndi daha yeriyə bilmirəm. Ağrıları da daha heç bir dərman sakit etmir. Nə gecəm var, nə gündüzüm. Bu 5 ay bir övladını həddindən artıq çox sevən bədbəxt ana üçün necə ağır keçdi? Onu gözlə görmək lazımdır. Gördüyünüz anadan əsər-əlamət qalmayıb. Can bala, sənə qurban olum, səni itirmək bizə çox ağır oldu. Heyf səndən, kimləri özünə yaxın bildin!? Bir ananın qapısını açmırlar, sağdır, ya ölüb? Özü də əl tutduğun adamlar! Çox-çox darıxmışam sənin üçün, can bala, İradim yatan torpağına qurban".

Ölümünə qədər telekommunikasiya biznesi sahəsində flaqmanlardan olan şirkətin sahibi İrad Hacıyevin valideynləri niyə bu gün müalicələrinə pul tapmır? Səbəb nədir? Şirkəti hazırda kimlərin əlindədir?

Son 18 il ərzində Azərbaycanda telekommunikasiya biznesi sahəsində böyük uğurlar əldə etmiş məşhur iş adamının həyatdan intiharla, qəfil ölümlə ayrılmadığı qənaətini həm də onun ailə üzvlərinin susqunluğu yaradır.

İrad Hacıyevin cansız bədəni 14 sentyabr 2018-ci ildə yaşadığı ünvanda, vanna otağında aşkar olunub. Həmin gün səhər İrad Hacıyev evdən çıxıb işlərinin dalınca getməyə hazırlaşıb. Amma getməyib. Günortadan sonra isə həyat yoldaşı Nigar Hacıyeva Qəhrəmanova onun cansız bədənini vanna otağında aşkar edib. Həmin vaxt vannanın içində olan İrad Hacıyevin əynində kostyum olub. Vannanın yanında isə preparatlar, hansıları ki, illərlə onun həyat yoldaşı qəbul edib, onların boş qutuları olub.

Ötənlərdə yazmışdıq ki, İrad Hacıyev ölümündən əvvəl özünü pis hiss etdiyinə görə Türkiyədə həkimlərə müraciət edib. Onun qanında olduqca böyük dozada preparat izləri aşkarlanıb. Həkimlər qan analizinin nəticəsi ilə tanış olduqda dəhşətə gəldiklərini də gizlətməyiblər. Həmin vaxt İrad Hacıyevin sözlərindən belə aydın olub ki, ona qanında izləri aşkarlanan preparatı həyat yoldaşı içirib. İrad Hacıyev həkimlərə həmin preparatı içməsinin səbəbini izah edə bilməyib. Sadəcə, deyib ki, ona preparatı yoldaşı içirir. Maraqlıdır ki, hadisə baş verən gün də onun meyitinin yanında məhz həmin preparatın boş qutuları aşkar olunub. Belə iddialar da var ki, İrad Hacıyev ölümündən az əvvəl həyat yoldaşı ilə boşanması üçün konkret olaraq addımlar atıb, ölkədən gedərək xaricdə yeni həyat qurması planlarını gizlətməyib. Bunu ailəsində hər kəs bilib.

Belə bir vaxtda onun qəfil və müəmmalı ölümü baş verib. Bu ölümə dərhal intihar adı verilib, yaxınları, ailəsi də susur. İş adamı İrad Hacıyevi tanıyanlar onun sağlığında ciddi problemlərinin olmadığını deyirlər. Ürəyində problemi olmayan İrad Hacıyev haqda belə bir iddianı yaxınları niyə yayır? Amma onun yaxınlarının, qayınanasının, həyat yoldaşının paylaşımları var ki, orada İrad Hacıyevin ürəyində problemlər olması iddia olunur. Sağlıq durumunda problemləri olmayan iş adamının barəsində "ürəyində problemləri olub" şəklində yayılan məlumatın səhvliyini bilən həyat yoldaşı Nigar Qəhrəmanova, onun anası niyə təkzib etmək əvəzinə yayırlar? Digər tərəfdən isə İrad Hacıyevin anası Züleyxa Hacıyevanın facebook üzərindən paylaşımlarında "oğlumu öldürüblər" şəklində konkret mövqeyi var.

Qeyd edək ki, İrad Hacıyevin həyat yoldaşı Nigar Hacıyeva Qəhrəmanova ilə əlaqə saxlayıb baş verənlərlə bağlı mövqeyini öyrənməyə çalışmışdıq. "Yoldaşımın işi prokurorluqdadır" deməklə, "Mən intervyu vermirəm, suallarınız var, prokurorluğa verin" söyləməklə suallara cavab verməkdən yayınmışdı.

❑ **E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 36 (7206) 15 fevral 2019

**Milli Şura aksiya keçirməyi planlaşdırır. Budəfəki mitinq problemli kreditlərə həsr ediləcək. Bu barədə "Turan" agentliyinin "Çətin sual" proqramına müsahibəsində Milli Şuranın sədri Cəmil Həsənli məlumat verib.**

# Milli Şuranın mitinq qərarı-aksiyalarla bağlı sanksiyalar nə qədər davam edəcək?

Son 4 ayda Milli Şuranın 19 yanvar aksiyası istisna olmaqla, 6 mitinq müraciətinə mənfi cavab verən Azərbaycan hökumətinin bu dəfə hansı münasibəti sərgiləyəcəyi suallar doğurur. Mitinq sanksiyalarının nə qədər davam edəcəyi bilinmir. Mitinqlərə icazə verilməməsini səbəbi kimi xaricdəki bəzi qüvvələrin bundan istifadə edə biləcəyi deyilir. İndiyə qədər siyasi məhbus problemini daha çox qabardan beynəlxalq təşkilatların, anti-Azərbaycan qüvvələrinin bu dəfə nəzərlərini mitinq sanksiyalarına yönəldə biləcəkləri önə çəkilir. Ölkədə islahatlar aparan iqtidarın fəaliyyətinə mitinq qadağalarının kölgə sala biləcəyi ehtimallar sırasındadır.

Bundan əlavə, problemli kreditlər ölkə vətəndaşları üçün aktual mövzudur. Bu səbəbdən də müxalif düşərgə bu problemdən maksimum dərəcədə yararlanmağa cəhd edir.

**Böyük Quruluş Partiyasının sədri, deputat Fazil Mustafa problemli kreditlərin aradan qaldırılmasının vacibliyindən söz açdı:** "Vəziyyət kritik həddə düşüb. Amma hökumətin prioritet verdiyi məsələlər var. Çox güman ki, bunları ardıcıl həll etməyi düşünürlər. Şəhid ailələri ilə bağlı məsələ çözüldü. Addım-addım bu məsələlər də çözülə bilər. Amma bunu mitinq predmetinə çevirmək doğru deyil. Mitinq daha çox həmin şəxslərin siyasi şüarları ilə bağlı ola bilər. Bu istiqamətdə çalışmaq daha doğrudur. İndiki şərtlərdə bu cür sosial tələbləri qabartmaq doğru deyil. Fikrimcə, daha çox cəmiyyətin Qarabağ məsələsinə yönəlik mitinqlərinə icazə verilməsi daha məqsədəuyğun olardı. Təəssüf ki, buna da icazə verilməyib. Amma ümid edək ki, məsələlər mitinq yolu ilə deyil, hökumətin öz iradəsi ilə həll ediləcək".

**Hüquqşünas-ekspert Əkrəm Həsənov bildirdi ki, borc məsələsi hər bir iqtidar üçün ciddi problemdir:** "Bu problem hər zaman sosial gərginlik yarada bilər. Heç kəs düşünməsin ki, bu sosial gərginliyi adi insanlar edir. İnqilab tarixlərini dərindən oxuyan bir insan kimi deyirəm ki, belə gərginlikləri daha çox iri borcları olanlar edir. Dövlət vəzifəsində işləyənlərin, oliqarxların borcu hamıdan çoxdur. Onlar borclarını verməmək üçün suyu bulandırırlar. Mən vətəndaşlara bu məsələ ilə bağlı məhkəmələrdə kömək edirəm. Bir qayda olaraq vətəndaşlar məhkəmələrdə uduzurlar. İri sahibkarlar isə tez-tez udurlar. Necə udduqları tamam başqa məsələdir. Uda bilməyəndə isə borc məsələsini siyasiləşdirməyə başlayırlar. Açığı, belə şeylərin əleyhinəyəm. Çünki sonunda populist şüarlara aparıb çıxarır. Bir şeyi unutmaq olmaz ki, banklar öz pullarını verməyiblər, əmanətçinin pulunu veriblər. Müxalifətin bu amildən istifadə etməsi populizmə aparıb çıxara bilər. Mən onunla tam razılaşıram ki, vəziyyətin bu həddə çatmasında dövlət orqanlarında çalışan bəzi şəxslərin biliksizliyi, savadsızlığı və qeyri-dürüstlükləri rol oynayıb. Hər zaman demişəm ki, problemli kreditlərin tam əksəriyyəti bank sahiblərinin, rəhbərlərinin yaratdığı problemdir. Onlar öz yaxınlarına, öz bizneslərinə qanunsuz kreditlər verirlər. O fikirlə verirlər ki, getsin gəlməsin. Yəni banka pul qoyan əmanətçilərin pullarını mənimsəyiblər. O kreditləri müəyyən etmək o qədər də çətin məsələ deyil. Bunun üçün hüquqşünas, maliyyəçi olmaq lazım deyil. İstənilən mətbuat





**Fazil Mustafa:** "Problemli kreditləri mitinq predmetinə çevirmək doğru deyil"

**Əkrəm Həsənov:** "Dövlət vəzifəsində işləyənlərin, oliqarxların borcu hamıdan çoxdur"

**Novella Cəfəroğlu:** "İcazəli mitinqlər hökumət üçün qorxulu deyil"

işçisi gedib bankda oturub kredit sənədlərinə baxdıqda müəyyən edəcək ki, hansı krediti bank bilə-bilə verib. Harada görsə ki, kredit məbləği böyükdür, faizi aşağıdır, müddəti uzundur, girovu ya yoxdur, ya da azdır, məsələ bitdi. Deməli, bu kreditləri qaytarmaq üçün dövlət orqanları işləməli idi. Bu problem 3 ildən çoxdur davam edir. Maliyyə Bazarlarına Nəzarət Palatası məhz bu səbəbdən yaradılmışdı. O kreditləri verən və alanları məsuliyyətə cəlb edib məcbur etmək olardı ki, o məbləğləri qaytarsınlar. Bu yolla bu problemi həll etmək olardı. Ondan sonra da əhalinin və vicdanlı biznesmenlərin kredit problemləri qalacaqdı. Bu problemlər də 30% təşkil edir. Burada da dövlət bank və dövlət hesabına müəyyən güzəştlər edə bilər. Bu problemləri bir ilə həll etmək olar. Çalışmaq lazımdır ki, bu problemdən bəzi qüvvələr sui-istifadə etməsinlər. Mən iqtidarda deyiləm. Dövlət vəzifəm yoxdur və dövlətdən də heç bir vəsait almıram. Vəkil kimi işləyirəm. Müxalifətlə də heç bir əlaqəm yoxdur. Amma dövlət orqanlarının günahlarını örtmək olmaz. Təsəvvür edin ki, ötən il ziyanla işləyən beş bank olub. Banklar bəzən sahibkarlardan pulları geri almaq üçün müxtəlif yollara əl atır. Onlar təhdid edilir, yaxud saxlanılır. Bu cür zor tətbiqlə pulları geri alırlar. Lap sahibkar qanunsuz kredit götürsə də, bu pulları verən bankdır axı. Sonda onu deyim ki, problemli kreditlərin yaranmasında günahkar olan orqanlar arasında Mərkəzi Bankın olduğunu unutmayaq. Bu qədər problemli kreditlər verilib, Mərkəzi Bankın xəbəri olmayıb. O zaman belə bir orqan nəyə lazımdır?"

**Hüquq müdafiəçisi Novella Cəfəroğlu mitinqlərə icazə verilməsinin vacibliyini vurğuladı:** "Mitinqlər ondan ötrü edilir ki, emosiyalar və digər hallar aradan qalxsın. Xaricdə keçirilən aksiyalarda baş verənlərin ölkəmizdə təkrarlanmasını, yaxud o tipli aksiyaların təşkil olunmasını istəmirəm. Narazılığını ifadə edənlər, mitinqlərə gələnlər dövlət və iqtidar üçün ziyanlı deyillər. İmkan vermək lazımdır ki, insanlar gəlib öz sözlərini desinlər. Daha pis o olardı ki, insanlar icazəsiz mitinqə çıxardılar. İcazəli mitinqlər hökumət üçün qorxulu deyil. Mitinqlərə icazənin verilməməsi həm xaricdə olan beynəlxalq təşkilatları, həm də xaricdə bizə qarşı çıxış edən insanları yenidən vadar edəcək ki, hər yerdə Azərbaycanda söz azadlığının olmadığını gündəmə gətirsinlər. Hesab edirəm ki, hökumət mitinqlərdən qorxmamalıdır. Hökumət öncəliklə öz məmurlarından qorxmalıdır. Qanunlara əməl etməyən məmurlar vəzifələrindən uzaqlaşdırılmalıdır".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# 30 min iş yeri bu adamlar üçün açılacaq - təfsilat

## Ödənişli ictimai işə cəlb olunanlara minimum əmək haqqı miqdarında maaş verilir

**Fevralın 13-də Beyləqanda səfərdə olan prezident İlham Əliyev bildirib ki, bu il 30 min nəfər ödənişli ictimai işlərə cəlb olunub.**

Qeyd edək ki, bu barədə prezident regionların sosial-iqtisadi inkişafına dair 3-cü proqramın yekunlarına həsr olunmuş konfransda da məlumat verib: "O bölgələrdə ki, işsizlik var, biz o bölgələrdə işsizliklə mübarizə aparmaq üçün ictimai işlər açmışıq. Bir neçə ildir ki, bu təşəbbüs reallaşır və ictimai işlərdə minlərlə insan işləyir və əmək haqqı alır".

Öğdənişli ictimai işlər nədir? Ora kimlər cəlb olunur? Suallarımıza Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən verilən məlumata görə, bu proses prezident İ.Əliyevin təşəbbüsü əsasında hazırlanmış "İşsizin DOSTU" proqramı çərçivəsində həyata keçirilir. Proqramın icrasına bu il yanvarın əvvəlindən start verilib. Nazirliyin tabeliyində olan Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin (DOST Agentliyinin) "DOST İş Mərkəzi" tərəfindən proqram çərçivəsində bu il 30 min nəfərin belə işlərə cəlb olunması nəzərdə tutulur. İndiyədək artıq 25 min nəfər işlə təmin olunub, qalan 5 min nəfərin də fevralın sonunadək təmin olunması nəzərdə tutulur: "Proqram çərçivəsində ictimai işlərə cəlb olunan vətəndaşlar rayon (şəhər) məşğulluq mərkəzlərində iş axtaran və ya işsiz kimi qeydiyyatda olan şəxslər arasından müəyyən edilirlər. Bu zaman həssas qruplardan olanlara (əlilliyi olanlara, məcburi köçkünlərə, şəhid ailəsi üzvlərinə və b.) üstünlük verilir. "Məşğulluq haqqında" Qanununa əsasən, haqqı ödənilən ictimai işlər işsiz şəxslərin müvəqqəti məşğulluğunu təmin etmək məqsədilə təşkil edilir və bu iş yerləri ilkin peşə hazırlığının olmasını tələb etməyən ictimai faydalı xarakter daşıyır. Ödənişli ictimai işlərə sosial xidmətlərin göstərilməsi, təmir, abadlaşdırma, ərazilərin ekoloji sağlamlaşdırılması, o cümlədən yaşıllaşdırma işləri, parklara, ictimai yerlərə qulluq və s. daxildir".

**Proqram çərçivəsində ictimai işlərə cəlb olunanların hər biri ilə əmək müqaviləsi bağlanır:** "Müqavilə nazirliyin Əmək Müqaviləsi Bildirişi üzrə Elektron İnformasiya Sistemində qeydiyyatdan keçirilərək rəsmiləşdirilir. Bu da həmin şəxslərin sosial sığorta sistemində qeydiyyata alınmaqla, gələcəkdə pensiya hüquqlarının yaranmasına əsas yaradır, yaxud mövcud fərdi hesablarında pensiya kapitallarını artırmalarına imkan verir. Onlara əmək haqqı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "DOST İş Mərkəzi" tərəfindən ödənilir və işlərin xarakterindən, əmək funksiyasından asılı olaraq əmək haqqı müəyyən olunur. İşçinin sosial sığorta, habelə işsizlikdən sığorta ödənişləri də "DOST İş Mərkəzi" tərəfindən həyata keçiriləcək".

**"İşsizin DOSTU" proqramı çərçivəsində əmək müqaviləsi işçi ilə 1 illik bağlanır və müvəqqəti xarakter daşıyır:** "Gələcəkdə isə işçinin istəyindən asılı olaraq müqavilə müddəti artırıla bilər. Bu işçilər günün bir hissəsi, yaxud həftənin müəyyən günlərində işləyir".

**Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayevin "Yeni Müsavat"ın sualına cavab olaraq verdiyi məlumata görə, ödənişli ictimai işlərə görə vətəndaşlara minimum əmək haqqı miqdarında əmək haqqı verilir:** "Bu, cənab prezidentin çox nəcib təşəbbüsüdür. Dünən Beyləqanda olanda da vurğuladı ki, bu il 30 min insan belə müvəqqəti işlə təmin olunacaq. Xüsusi olaraq vurğulayım ki, bütün rayonlar bu proqramla əhatə olunur. Hər rayon üzrə kvota müəyyənləşdirilib. 30 min nəfər rayonlar üzrə bölünüb, işlə təmin olunur. Onlara verilən əmək haqqı martın 1-dən 180 manat olacaq".

❑ **DÜNYA,**
**"Yeni Müsavat"**

# Bu gün Münhen Təhlükəsizlik Konfransı başlayır

## Dünyanın təhlükəsizliyi üçün narahatlıq yaradan 10 problemin sırasına Dağlıq Qarabağ münaqişəsi niyə daxil edilməyib?

**Fevralın 15-də 55-ci Münhen Təhlükəsizlik Konfransı başlayır. Fevralın 17-dək davam edəcək konfransda təhlükəsizlik siyasəti sahəsində mütəxəssis olan 600 nəfərin, o cümlədən 35 dövlət və hökumət başçısının, 80 müdafiə və xarici işlər nazirinin iştirak edəcəyi xəbər verilir.**

Forumun rəhbəri Volfqanq İşinger jurnalistlərə açıqlamasında qeyd edib ki, bir neçə yüksək çinli siyasətçinin iştirakdan imtina etməsinə baxmayaraq, builki Münhen Təhlükəsizlik Konfransı 50 ildən çox tarixi ərzində ən vacib və ən böyük konfrans olacaq.

Konfransda iştirakdan imtina edənlər arasında Fransa prezidenti Emmanuel Makron və İsrail baş naziri Binyamin Netanyahu kimi şəxslər var.

Münhendə ABŞ-ı vitse-prezident Mayk Pens, Nümayəndələr Palatasının sədri Nensi Pelosi, həmçinin Trampın qızı İvanka və onun həyat yoldaşı Cared Kuşner təmsil edəcək.




Münhen Təhlükəsizlik Konfransında həmçinin Almaniya kansleri Angela Merkel, Avropa İttifaqının xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsi Federika Mogerini, NATO baş katibi Yens Stoltenberq iştirak edəcəklər. Azərbaycanı xarici işlər naziri Elmar Məmmədyarov təmsil edəcək.

Bəs Münhen Təhlükəsizlik Konfransının dünya üçün hansısa ciddi əhəmiyyəti varmı? Orada müzakirə olunan və verilən qərarların təsir gücü olurmu?

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov deyib ki, Münhen konfransında dünyanın təhlükəsizliyi üçün narahatlıq yaradan 10 problemin sırasına Dağlıq Qarabağ münaqişəsi daxil edilməyib. Bu ayrı-seçkilik nədən qaynaqlanır? Dünya birliyi Qarabağ münaqişəsini artıq dondurulmuş və təhlükə vəd etməyən münaqişə sayır?

**Politoloq Nəzakət Məmmədova** "Yeni Müsavat"a bildirdi ki, Almaniya Soyuq müharibə dövründə SSRİ ilə Almaniya arasında ayırıcı xətt rolunda olan ölkə olduğundan, Qərbin bir sıra təhlükəsizlik məsələlərini araşdırma mərkəzləri məhz bu ölkədə yerləşir, məsələn, Corc Marşall adına Avropa Təhlükəsizlik Araşdırmaları Mərkəzi kimi. Yeri gəlmişkən, o da Münhen yaxınlığındadır. Münhen Təhlükəsizlik Konfransı da 1962-ci ildən bəri düz 57 ildir ki, keçirilir. Bu, həmin 1962-ci ildir ki, SSRİ ilə ABŞ-ı nüvə müharibəsinin bir addımlığına gətirən, rusların Karib böhranı, Qərbdə isə raket böhranı adlanan qarşıdurma baş vermişdi. Ondan bir il əvvəl isə 1961-ci ildə Berlin divarı çəkilmiş, Sovetlər İttifaqı kosmosa ilk uçuş həyata keçirmişdi: "Belə bir zamanda Münhen şəhərində Xristiyan-sosialistlərin rəhbərliyi altında Hərbi Məsələlər Konfransı hər il keçirilməyə başladı, sonradan Münhen Təhlükəsizlik Konfransı adlanmağa başladı.

Münhen Təhlükəsizlik Konfransının yarandığı ildən sonrakı ilk 30 ildə onun istirakçıları əsasən NATO ölkələrinin yüksək rütbəli hərbi və siyasi liderləri olub. Soyuq müharibə başa çatdıqdan sonra isə 90-cı illərin ortalarından etibarən onunla bir zamanlar əks qütbdə dayanan Rusiya, Çin, Şərqi Avropa liderləri də onun işində iştirak etməyə başlayıb. Biz şəxsən bir zamanlar Almaniyada kəşfiyyatçı işləmiş prezident Putini də Münhen konfransında iştirak və çıxışlar edərkən müşahidə etmişik.

Eyni zamanda məhz prezident Putinin 2007-ci ildə Münhendəki məşhur çıxışı dünyada birmənalı olaraq yeni Soyuq müharibənin başlanğıcı kimi qəbul olunmuşdu. Amerika senatorları Makkeyn, Lindsi və başqaları da daxil olmaqla Putini bu çıxışı ilə qeyd etdiyimiz yeni Soyuq müharibə yelləri əsdirməkdə ittiham etdilər. Xatırlasaq ki, Davosda da Ərdoğanla Şimon Peres arasında məşhur polemika baş vermişdi, onda mübaliğəsiz qeyd etmək olar ki, belə mötəbər platformalar dünya siyasətinin axarına təsir edir, nəinki dövlətlərarası əlaqələrdə, hətta beynəlxalq münasibətlərdə dönüş nöqtəsinə çevrilə bilir".

**Politoloq onu da qeyd etdi ki, Münhen Təhlükəsizlik Konfransı, Davos İqtisadi Forumu, Valday klubu kimi beynəlxalq platformalar dövlətlərin birləşmə məkanından çox, əksər hallarda boykot, münaqişə, mübahisələrlə yadda qalır. Trampın ABŞ-Çin ticarət savaşı səbəbindən son Davos Forumuna qatılmaması buna əyani misaldır:** "Bəzi araşdırmalara görə, müharibə və sülh, qlobal siyasətin digər aspektləri, biznes və maliyyə məsələləri, dünyanın resursları və pullarına nəzarət məhz bu qapalı forumda əksini tapır. Məsələn, Daniel Estulin "Bilderberq klubu" kitabında yazır ki, "1954-cü ildə dünyanın ən qüdrətli, nüfuzlu insanları Hollandiyada ilk dəfə qapalı şəraitdə görüş keçirdilər və dünyanın gələcəyinə dair bundan sonra məxfi görüşlər keçirməyi qərara aldılar. Dünya siyasətində xüsusi yeri olan ABŞ, Kanada və Qərbi Avropanın siyasi-maliyyə elitasının həmin görüşləri indiyədək məxfi, yalnız öz adamlarından ibarət məxfi, dar bir çevrədə təşkil olunur.

Onunla müqayisədə Münhen konfransı və digər bu tip platformalar daha açıq, şəffaf, məxfilik pərdəsi örtülməmiş şəkildədir. Belə bir yanaşma da mövcuddur ki, bu cür platformalar xüsusi xidmət orqanları tərəfindən təşkil olunub və ona nəzarət edilir. Məsələn, "Bilderberq klubu" 40-cı illərdə Amerikanın Avropa elitaları üzərində nəzarətini möhkəmlətmək məqsədilə Mərkəzi Kəşfiyyat İdarəsi tərəfindən yaradılmışdı. Amerikanın Avropa işlərinə birbaşa açıq müdaxiləsi bu ölkələrin ictimaiyyəti tərəfindən narazılıqla qarşılandığı üçün Mərkəzi Kəşfiyyat İdarəsi NATO üzvü ölkələrinin siyasi-maliyyə elitasını "məsləhətləşmələr" adı ilə "Bilderberq klubu"nda toplamağa qərar vermişdi".



**Nəzakət Məmmədova:** "Görünür, Qarabağ məsələsini Rusiyanın nüfuz dairəsinə daxil olan problem, ATƏT-in Minsk Qrupunun inhisarında olan münaqişə saydıqlarından..."

**Münhen konfransının gündəliyində Dağlıq Qarabağ münaqişəsinin dünya üçün narahatlıq yaradan problemlər sırasına daxil edilməməsinə gəlincə, N.Məmmədova dedi ki, dünyada münaqişələrə, təhlükələrə də yanaşmada ayrı-seçkilik nöqteyi-nəzərindən yanaşma var. Bu cür platformaları təşkil edən güc dairələri yalnız öz mənafelərinə zərbə vura biləcək məsələləri gündəmə gətirirlər:** "Görünür, Qarabağ məsələsini Rusiyanın nüfuz dairəsinə daxil olan problem, ATƏT-in Minsk Qrupunun inhisarında olan münaqişə saydıqlarından Münhen forumu onu gündəliyinə daxil etmək istəməyib. Halbuki indiyə qədər Azərbaycan prezidenti İlham Əliyev də orada iştirak və çıxış edib, eləcə də Ermənistanın keçmiş prezidenti Sərkisyan Münhendə çıxış etmişdi".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsaavat"**

# Vaşinqton İran əleyhdarı olan dövlətləri bir araya gətirir

## İrana qarşı "Varşava konfransı"

**Fevralın 13-14-dı Polşanın paytaxtı Varşava şəhərində Yaxın Şərqdə təhlükəsizlik məsələlərinə həsr olunmuş konfrans keçirilib. Konfransın başlığı Yaxın Şərqə aid edilsə də, əsas mövzu Suriya və İran, daha dəqiqi, İran olub. Tədbirin əsas təşkilatçısı ABŞ hökumətidir.**

"Yaxın Şərqdə Sülh və Təhlükəsizlik" adlandırılan konfransa 80-dən çox ölkə dəvət olunsa da, məhz konfransla bağlı fikir ayrılıqları səbəbindən bir sıra ölkələr qatılmayıb və ya aşağı səviyyədə təmsil olunub.

O cümlədən Türkiyə, Rusiya, Qətər, Livan kimi ölkələr Varşava konfransında aşağı səviyyədə təmsil olunub. Türkiyə XİN-in yüksək vəzifəli məmuru bildirib ki, Türkiyənin bir ölkənin əleyhinə yönəlmiş (indiki halda İran) siyasi görüşdə iştirakdan imtina etməsi şübhə altına alına bilməz.

Maraqlıdır ki, Varşava toplantısına hazırda Vaşinqtonla üzdə görünməsə də, İran mövzusuna görə soyuq münasibətləri olan Avropa İttifaqı da yüksək səviyyədə təmsil olunmayıb. Bir sıra Avropa ölkələri isə konfransın İrana həsr olunmasına etiraz edib. Yalnız bundan sonra Pompeo toplantının yalnız İran deyil, Yaxın Şərqə həsr olunduğunu bildirib.

Qeyd edək ki, ABŞ dövlət katibi Mayk Pompeo bildirib ki, Varşava toplantısında diqqət Yaxın Şərqdə sabitlik, sülh, azadlıq və təhlükəsizliyin təmin olunması məsələləri üzərində cəmləşdiriləcək. Tədbirin əsas təşkilatçıları ABŞ-ın vitse-prezidenti Mayk Pens, dövlət katibi Pompeo və Polşanın xarici işlər naziri Jacek Czaputowicz olub. Ancaq 80 ölkənin dəvət oldunduğu toplantıya 60-dək ölkədən aralarında xarici işlər nazirləri də olmaqla müxtəlif dövlət vəzifəliləri qatılıb.

Ancaq buna baxmayaraq, toplantı baş tutub və əsas diqqət gözlənildiyi kimi, İran üzərində olub. Bunun bir sübutu da Varşava toplantısında İsrail baş naziri Netanyahunun iştirak etməsi olub. Varşavada Səudiyyə Ərəbistanı, BƏƏ, Bəhreyn, İordaniya, Mərakeş, Oman və Yəmən Mansur Hadi hökuməti xarici işlər nazirləri səviyyəsində, Misir və Tunis isə xarici işlər naziri müavini səviyyəsində təmsil olunub. Xatırladaq ki, İsraildə kabinetdə baş verən istefalardan sonra baş nazir Netanyahu həmçinin xarici işlər və müdafiə nazirləri postunu da tutur.



Mayk Pompeo

Konfransa Tehran dəvət olunmayıb. Bu isə narazılıqlara səbəb olub. Prezident Həsən Ruhani deyib ki, ölkəsinə və beynəlxalq hüquqa hörmət prinsipləri əsasında istənilən ölkə ilə müzakirələrə hazırdırlar. Ancaq o deyib ki, təzyiq və təsiri qəbul etməyəcəklər.

Maraqlıdır ki, Varşavaya Fələstin məsələsində Trampa təsir edən əsas şəxslərdən biri hesab olunan kürəkəni Cared Kuşner də qatılıb. Bu səbəbdən də bir sıra media orqanlarında Varşava konfransında eyni zamanda Fələstin münaqişəsi, həmçinin Tramp administrasiyasının irəli sürdüyü "əsrin anlaşması" da gündəmə gətiriləcək.

Konfransda çıxış edən ABŞ dövlət katibi Mayk Pompeo deyib ki, Yaxın Şərqdəki problemləri həllində heç bir ölkə kənarda qalmamalıdır. 60 ölkənin təmsilçilərinə müraciət edən Pompeo deyib ki, ABŞ bu problemlərin həllində ölkələr arasında yeni bir əməkdaşlıq dövrünün başladılmasını istəyir.

Pompeo çıxışında birbaşa İranı hədəf almayıb. Eyni zamanda bildirib ki, Suriya, Fələstin və Yəməndə baş verən problemlərin heç biri özbaşına həll olunmayacaq, təhlükəsizliyin təmin olunması üçün birgə çalışmaq lazımdır.

Maraqlıdır ki, Varşava toplantısından əvvəl baş nazir Netanyahunun ibrani dilində yayılan yazılı açıqlamasında Varşava konfransı haqqında "Hamımızın ortaq marağı olan İranla savaş müzakirə olunacaq" cümləsi olsa da, sonradan baş nazirin ofisi açıqlamada düzəliş edərək "savaş" kəlməsinin "mübarizə" kəlməsi ilə əvəz edilməli olduğunu bildirib.

İran hökuməti isə Varşava konfransını "sirk" adlandırıb. Xarici işlər naziri Cavad Zərif deyib ki, Varşava konfransının başladığı gün İranın sista-Bəlucistan əyalətində terror aktının baş verməsi təsadüfi deyil. Zərif terror aktına görə dolayısı ilə ABŞ-a işarə edib. İran XİN rəhbəri twitter səhifəsində "İranın "Varşava sirkinin" baş tutduğu gün terror hücumuna məruz qalması təsadüfdürmü? Xüsusən də terrorçuların dəstəkçilərinin Varşava küçələrində bayram etdiyi bir zamanda. Görünən odur ki, ABŞ hər dəfə eyni səhvi edir və hər dəfə fərqli nəticə əldə etməyə çalışır" - yazıb.

❑ **Kənan RÖVŞƏNOĞLU,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 36 (7206) 15 fevral 2019

# Kölgələr xəritədə yox olur



Zamin HACI
zaminhaci@gmail.com

"Madımak toplayıp yesem o anda,
Yola revan olsam aynı zamanda,
Bir gece misafir Azerbaycan'da,
Kalmadan ölürsem ona yanarım".
*(Ozan Arif)*

**"Ya Qarabağ, ya ölüm, Başqa yolu yox artıq" türküsünü yazan türkiyəli şair Ozan Arif 13 fevralda öldü, ancaq biz Qarabağın üzünü görmürük. Belə getsə, deyəsən, heç görməyəcəyik də. Çünki hökumət Qarabağ Komitəsinin mitinqlərinə icazə verməyib, bundan sonra komitədən istefalar başlayıb. Ən son olaraq Ağasif bəyin Gələcək Azərbaycan Partiyasından 8 nəfər gedibdir. Belə gələcək Azərbaycan bizə lazım deyildir.**

Bu yaxında Qarabağdan və ətraf rayonlardan (açığı, hər dəfə bunu yazanda ağlıma belə söz oyunu gəlir: "Qarabağ yaxşıdır, ətrafı pisdir") fotolar verilmişdi. Uzun bir silsilə idi. Dağılan evlər, toz basmış televizorlar, cırıq pərdələr, minarələrdə oturmuş ermənilər və çinli turistlər və qapılar, qapılar, qapılar... Bir darvaza formasının insana bu qədər hüzn gətirəcəyini fikirləşməzdim. Ancaq Qarabağda, Şuşada darvazalar elə həmin köhnə, 92-93-cü illərin, sovetlərin dizaynında qalıb. Dəmir lövhənin üzərinə bərkidilmiş olimpiya halqaları, alüminium tozu ilə rənglənmiş naxışlar... O vaxtdan bəri bizdə hər cür daravazalar çıxıb. Hətta iki tayı birləşəndə aslan ağzı forması alan qapılar da var, lakin Qarabağı itirmiş Azərbaycan heç vaxt aslan ola bilməz. Olsa olsa ev pişiyi olar.

Bir də o kədərli fotoların qatarına baxanda ağlıma gəldi ki, Qarabağ sözünün ən uyğun qafiyələrindən biri "xaraba" sözü imiş. Niyə indiyə qədər bunu düşünməmişəm, heç bilmirəm. Yəqin Qarabağa xaraba qalmağı yaraşdırmamışam.

Adam tanıyıram, balaca dükanda kompüter, çap maşını qoyub dəftərxana xidmətləri göstərir. Cəbrayıllıdır. Keçən həftə dükandan nəsə alırdım, məndən soruşur: "Quqlda yeni şəkilləri necə tapmaq olur, bilmirsən?" Baxıram ekranda məşhur "Google Earth" proqramını açıb. Məlum məsələdir - fokus Cəbrayıl üzərindədir. Aerofoto və ya peyk çəkilişinin tarixini axtarıb baxırıq. Keçənilkidir. Prinsipcə, baxdığımız yerin ən yeni çəkilişidir. Orda qabaqkı çəkilişləri də izləmək olur. Görürsən ki, 10 il qabaq hansısa kənddə salamat qalmış axırıncı divar 5 il qabaq artıq yoxdur. 7 il öncə kölgəsi düşən ağac da quruyub. Baxanlar, bu proqramın köçkün-qaçqın "xəstələri" bu kölgələrdən yaxşı xəbərdardır. Bəzən elə arzu edirsən ki, tanıdığın bir ağacın kölgəsi qalsın... Heç olmazsa. Cəbrayıllı öz coğrafi kəşflərini sanki bir Fernando Magellan kimi mənə göstərir: "Bax, bunu təzə tikiblər. Uzun çardaq kimini deyirəm, görürsənmi? Deyəsən hərbçilər qalır. Bu da bizim vaxtımızda yox idi. Təzə məhəllə kimi şey salıblar. Hərbi hissədən, cəbhə xəttindən çox aralıdır. Fikirləşirəm bəlkə köçürülmə ermənilərin yeridir". Adama yazığım gəlir. Məncə, o, bir daha Cəbrayılı görməyəcəkdir. Yalandan nağıllar danışmağın nə mənası var? Elə Magellan da Portuqaliyanı bir daha görə bilməmişdi. Onu indiki Filippin adalarında yerli qəbilələr öldürmüşdülər. Ancaq təsəlli də var: hər halda, Magellanın ekspedisiyasından yeganə "Viktoriya" gəmisi ilk dünya dövrə-səyahətini başa vurub vətənə qayıtmışdı. 18 matrosla. Başlanğıcdakı 5 gəmi və 280-ə yaxın dənizçidən qalan bu olmuşdu.

Qarabağ və ətrafının xarabalıq fotolarında Suriya ermənilərinin Zəngilanda yerləşdirilməsi temasında da xeyli şəkil vardı. Bu nə həyasız mövqedir? Nə üçün bizim XİN danışıqlarda, ATƏT Minsk Qrupunun həmsədrləri ilə görüşlərdə bu qanunsuz məskunlaşdırmaya diqqət yönəltmir, etiraz eləmir? Məncə, Elmar müəllim Zəngilandan ümidini bu qədər tez üzməsin.

Ozan Arifə isə rəhmət diləyirəm. O boyda Türkiyədən, o qədər dava ərzində bizi fikirləşən beş-üç kişidən biri olmuşdu. Dərdə yanan az olanda, o azlar daha qiymətli görünür. Dərd nə boyda olur olsun...




# ABŞ və Rusiya Ermənistanda toqquşur - Vaşinqton İrəvana qarşı bəyanat verdi

## Erməni hökumətinin Suriya rejiminə dəstəyi və Rusiyaya artan reveransları Ağ Evi hövsələdən çıxardı; Dövlət Departamenti Paşinyan hökumətini zülmə və zalıma dəstəkdə suçladı; İrəvandan qorxaq reaksiya gəldi...

**ABŞ-ın gizli dəstəyi ilə Ermənistanda inqilabi yolla hakimiyyətə gələn Nikol Paşinyanın Rusiyanın dəstəyi və istəyi ilə Suriyaya hərbçilərdən və tibbi heyətdən ibarət humanitar missiya göndərməsinin Vaşinqtonda qıcıq doğuracağını yazmışdıq. "Yeni Müsavat"ın məlumatına görə, dünən ABŞ-ın Ermənistandakı səfirliyi 1 in.am erməni KİV-nin sorğusuna cavab olaraq, ABŞ Dövlət Departamentinin İrəvanın bu addımı ilə bağlı bəyanatını yayıb. Gözlənildiyi kimi, Ermənistanın addımı yetərincə sərt şəkildə qınanıb.**

"Biz digər ölkələrin Suriyadakı humanitar vəziyyətə reaksiya vermək istəyini başa düşürük və Yaxın Şərqdəki dini azlıqların müdafiəsi məsələsi ilə bağlı narahatlığını bölüşürük. Bununla belə, mülki vətəndaşlara yardım edilməsi və yaxud hərbi xarakter daşımasından asılı olmayaraq, Suriya silahlı qüvvələri ilə hansısa əməkdaşlığı dəstəkləmirik. Eləcə də biz bu missiyada Ermənistanla Rusiya arasındakı heç bir əməkdaşlığı dəstəkləmirik. Rusiya dinc sakinləri öldürən və humanitar faciəyə səbəb olan Bəşər Əsəd rejiminin sponsorudur və Əsəd rejiminin və onun zülmlərinin müdafiəsinə qalxmağı davam etdirir", - deyə səfirliyin açıqladığı bəyanatda qeyd olunur və faktiki surətdə Paşinyan hökuməti də zülmə dəstəkdə ittiham olunur.

İrəvanın bəyanata reaksiyası isə ürkək olub. Belə ki, Xarici İşlər Nazirliyinin mətbuat katibi Anna Naqdalyan bəyanatı şərh edərkən deyib: "Biz ABŞ Dövlət Departamentinin Suriyadakı erməni humanitar missiyası ilə bağlı bəyanatını diqqətə aldıq. Suriya böhranı dövründə erməni xalqı həmişə dinc əhalinin və azlıqların, o cümlədən erməni icmasının taleyini narahatlıqla izləyib", - deyə o, missiyanın göndərilməsinə haqq qazandırmağa çalışıb.

*****

Bir daha qeyd edək ki, okeanın o tayından belə sərt reaksiyanın gələcəyi təəccüblü deyil. Çünki son vaxtlar, xüsusən də Ermənistanda dekabr seçkiləri başa çatandan və Nikol Paşinyan tam legitimlik qazanandan sonra ABŞ hökuməti ümid edirdi ki, Paşinyan Rusiya orbitindən Ermənistanı uzaqlaşdırmağa və Qərbə yönəlik, Dağlıq Qarabağ probleminin həllinə və qonşularla əlaqələrin bərpasına yönəlik real addımlar atacaq. Erməni baş nazir bir-birinin ardınca Kremlə reveranslar etməyə başlayıb.

Suriyaya humanitar missiyanın göndəriməsi öz yerində. Ardınca Moskva səfəri zamanı silahla bağlı Rusiyadan bəzi vədlər alan müdafiə naziri David Tonoyan İrəvanda bəyan etdi ki, "əgər Suriyadakı hərbi əməliyyatlarda iştirak zərurəti də yaranarsa, o zaman Ermənistan qanuni əsasda buna da gedəcək". Yəni İrəvan Rusiya tərəfdə və cinayətkar Bəşər Əsəd rejiminə dəstək olaraq, hərbi əməliyyatlara qoşulmağı da mümkün sayır.

Daha öncə isə məlum olmuşdu ki, Paşinyan hökumətinin 5 illik proqramında ölkənin xarici siyasəti ilə bağlı əsas prioriteti qismində məhz Rusiya ilə strateji əlaqələrin dərinləşməsi yer alıb. Proqramda həmçinin Ermənistanın bundan sonra da Putinin layihələri olan Avrasiya İqtisadi Birliyi və KTMT-də qalacağı və hətta həmin qurumlarda "fəal və təşəbbüskar olacağı" vurğulanıb.

Bundan başqa, fevralın 27-də Ermənistan baş naziri Nikol Paşinyanın Birləşmiş Ştatların hədəfində olan İrana rəsmi səfəri nəzərdə tutulub. Şübhə yox ki, bu səfər həm də Qərbdən maliyyə dəstəyi qoparmaq üçün şantaj niyyəti güdür. Ancaq Tehran səfərinin Suriyaya humanitar missiyasının göndərilməsinə verilən neqativ reaksiya kimi əks-nəticə doğuracağı da istisna edilmir. Ola bilsin, Rusiyaya bunca sədaqət vədləri və yaxınlaşma jestləri olmasaydı, Paşinyanın İran səfərinin üstündən sükutla keçilərdi. Ancaq ehtimal var ki, ABŞ artıq qəzəbli olduğu Paşinyana qarşı bundan da bəhanə kimi istifadə eləsin.

Xatırladaq ki, Dövlət Departamentinin son bəyanatına kimi ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Bolton özünün Ermənistan səfərin zamanı və daha sonra Davosda olarkən şəxsən telefon açdığı Nikol Paşinyanın özünə ABŞ-ın bölgə ilə, Qarabağ məsələsi ilə bağlı priorotetlərini çatdırıb. Ardınca prezident Donald Trampın Paşinyana məktubunda da eyni hədəflər, o sıra da İrəvanın öz əsas qonşuları ilə dil tapmasının zəruriliyi aydın şəkildə ifadə olunub.

*****

Göründüyü kimi, Ermənistanda ABŞ-ın dəstəklədiyi "məxməri inqilab"dan keçən 10 ayda yeni hökumət Rusiyanın mövqeyini zəiflədəcək heç bir addım atmayıb. Ermənistan yenə də Rusiyanın hərbi qalası olaraq qalır. Moskvadan iqtisadi-siyasi və energetik asılılıq da öz yerindədir. Eləcə də erməni xalqının həyat şəraiti ağır olmaqda davam edir və iqtisadi inkişaf arzu olaraq qalır. Həmçinin ölkədən kütləvi köç səngiməyib. Çünki artıq erməni analitiklərin özləri də etiraf etdikləri kimi, Qarabağ məsələsi, blokada problemi həll edilməyincə iqtisadi rifah əlçatmaz olacaq.

Belədə sual ortaya çıxır ki, erməni xalqının durumu yaxşılaşmayacaqdısa, Rusiyadan vassal asılılığı aradan qalxmayacaqdısa, o zaman inqilab eləməyə dəyərdimi? Hərçənd Ermənistanın "qazancı" var. Bu da odur ki, işğalçı ölkədə ABŞ-la Rusiya heç vaxta olmadığı qədər üz-üzə gəlib. Ermənistan uğrunda savaş yeni mərhələyə keçməkdədir...

❑ **Sìyasət şöbəsì, "Yenì Müsavat"**

# ABŞ ərəb koalisiyasından çıxır

**ABŞ Konqresinin Nümayəndələr Palatası Amerikanın Səudiyyə Ərəbistanının başçılığı ilə Yəməndə hərbi əməliyyatlar aparan ərəb koalisiyasında iştirakının dayandırılması barədə qətnamə qəbul edib.**

Virtualaz.org yerli KİV-ə istinadən bildirir ki, qətnamənin lehinə Nümayəndələr Palatasının 248, əleyhinə isə 177 üzvü səs verib.

ABŞ Konqresinin yuxarı palatası olan Senatın da qətnaməni təsdiqləyəcəyi gözlənilir. Sənədin Senatdan keçməsindən sonra isə ABŞ prezidenti 30 gün ərzində müvafiq fərman imzalamaqla Amerikanın ərəb koalisiyasından çıxmasını rəsmiləşdirməlidir.

# Çinlə razılığın əldə olunması təxirə salına bilər

**ABŞ prezidenti Donald Tramp ticarət məsələləri ilə bağlı Pekinə razılıq əldə edilməsi üçün daha 60 gün ayıra bilər. Bu barədə "Bloomberg" öz mənbələrinə istinadən məlumat yayıb.**

Pekində fevralın 14-15-də Çin və ABŞ arasında ticarət razılaşması üzrə danışıqların növbəti mərhələsi keçirilir.

Qeyd edək ki, dövlət başçılarının ötən ilin dekabr ayında Buenos-Ayresdə G20 sammiti çərçivəsində baş tutan əvvəlki görüşü bir sıra razılaşmaların əldə olunmasına imkan yaradıb. Vaşinqton Çin mallarına rüsumların artırılmasını təxirə salıb, Pekin isə ABŞ-dan idxalı artırıb. Dövlət başçılarının əldə etdikləri razılığa əsasən, Çin tərəfi ABŞ-ın Çinlə ticarətdəki kəsirini azaltmaq məqsədilə Amerika mallarının alış həcmini artıracaq. Tərəflərin ticarət sazişi imzalanmasına dair öhdəlik götürdüyü müddət bu il martın 1-də başa çatır.



# İlham Əliyevin və Ərdoğanın dediyi həqiqət: "Dünya 5-dən böyükdür"

## Politoloq: "Bu gün dünya üçün ən böyük təhlükə məhz beynəlxalq hüquq normalarının tapdalanmasıdır"

**Azərbaycan prezidenti İlham Əliyev Real televiziyasına verdiyi müsahibədə Dağlıq Qarabağ problemindən danışarkən bu gün dünyada "Kim güclüdür, o da haqlıdır" prinsipinin hökm sürdüyünü bildirib:**

"Mən həmişə demişəm ki, bu gün dünyada güc amili ön plana çıxır. Baxın, dünyanın müxtəlif yerlərində beynəlxalq hüquq kobudcasına pozulur. Əgər əvvəlki dövrlərdə bunu müəyyən formada gizlətmək istəyirdilərsə, bu gün heç buna ehtiyac da görmürlər. Bu gün dünyada "Kim güclüdür, o da haqlıdır" prinsipi hökm sürür. Bu, yeni reallıqdır. Biz bu reallığa hazır olmalıyıq. Dünya dəyişir və biz bu dəyişikliyə hazır olmalıyıq. Xoşbəxtlikdən biz öz iqtisadi və hərbi gücümüzü uzun illərdir ki, artırırıq. Sanki özümüzü bugünkü vəziyyətə hazırlayırdıq və bu gün biz hazırıq. Ona görə güc amili həmişə gündəlikdə olub və olacaq. Biz bunu nəinki bizim münaqişə, bir çox başqa münaqişələrlə bağlı da görürük. Ona görə biz müxtəlif imkanlardan istifadə edəcəyik və Azərbaycanın ərazi bütövlüyünün bərpası bizim əsas vəzifəmizdir. Azərbaycan vətəndaşları bunu bilməlidirlər ki, bu, hər bir vətəndaşın əsas vəzifəsidir, dövlətin əsas vəzifəsidir. Biz bu istiqamət üzrə öz siyasətimizi bundan sonra da aparacağıq". Yada salaq ki, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan da dünyadakı ədalətsizliyə qarşı çıxışlar edib. O, ötən il BMT Baş Assambleyasının 73-cü sessiyasında BMT-ni və zülmə səssiz qalan üzv dövlətləri tənqid edib: "BMT Təhlükəsizlik Şurası dünyada baş verən zülmləri seyr edən və 5 daimi üzvə xidmət edən bir forma alıb. Dünya "5"dən böyükdür. İnsanlığın ortaq vicdanının səsi olduğumuza inanırıq".



Qabil Hüseynli

**Politoloq Qabil Hüseynli "Yeni Müsavat"a bildirib ki, Azərbaycan prezidentinin bu çıxışı hazırkı dünyada mövcud olan vəziyyətin əyani təsviridir:** "İlham Əliyev dünya siyasətini yaxşı bilən dövlət başçısı kimi orada gedən proseslərə yaxından bələd olan peşəkar siyasətçi, strateqdir və o bu fikirləri haqlı olaraq söyləyib. Həqiqətən də bu gün dünya düzənində vəziyyət prezidentin təsvir etdiyi kimidir. Beynəlxalq hüquq normaları güclülərin ayaqları altına atılır. Kimin gücü varsa, öz siyasi iradəsini yeritməyə çalışır. İkili standartlara da, BMT-nin qətnamələrinin də pozulmasına rəvac verən amil güc amilidir. Ən xoşa gəlməyən hal odur ki, bu proses son zamanlar daha artan sürətlə gedir. Bir neçə dövlət var ki, dünyanı öz diktəsi ilə idarə etmək iddiasındadır. Həmin dövlətlər özlərini dünya sanırlar. Dünya indi gücün əsarəti altındadır desək səhv etmərik. Bu gün dünya üçün ən böyük təhlükə məhz beynəlxalq hüquq normalarının tapdalanmasıdır, gücün ədaləti üstələməsidir. Bu mənada cənab prezidentin müşahidələri tamamilə dəqiqdir. Bu gün Fələstinə dair BMT-nin 50-dən artıq qətnaməsi var, amma onların heç biri hələ də həyata keçirilməyib. Bu vəziyyəti yaradan yenə də bir neçə böyük dövlətdir. Azərbaycanın ərazisi işğal edilib, işğal amilindən danışırlar, BMT-nin işğal olunmuş ərazilərdən erməni qoşunlarının çıxarılması tələbi ilə 4 qətnaməsi var, lakin bu qətnamələrin də yerinə yetirilməsini tələb etmirlər. Ermənistanı açıq şəkildə işğalçı adlandırmırlar. Beləliklə, Dağlıq Qarabağ məsələsinə münasibətdə də beynəlxalq hüququn normalarının tapdanması açıq-aydın ortaya çıxır. Çinin son illərdə güclənməsi isə dünyada nüfuz dairəsi uğrunda mübarizəni daha da şiddətləndirib. BMT Təhlükəsizlik Şurasının 5 daimi üzvündən üçü bu gün az qala müharibə vəziyyətindədir. Dünyadakı geoploitik duruma, beynəlxalq təşkilatların qərarlarına, verilən qərarların icra olunmamasına məhz onlar təsir edir. Beynəlxalq hüquq bu güclərə təsirsiz vəziyyətə gətirilib".

**Politoloq qeyd etdi ki, belə bir vəziyyətdə Azərbaycan təzyiqlərdən yan keçmək, təzyiqlər qarşısında duruş gətirmək üçün müəyyən imkanlara malikdir:** "Prezident bəyan etdi ki, Azərbaycan milli maraqlara əsaslanan xarici siyasət yürüdür. Bu siyasət bizim təhlükəsizliyimizə xidmət edir. Mən düşünürəm ki, Azərbaycan dünyada "kim güclüdür haqlıdır" prinsipinin önə çıxdığını da nəzərə alaraq torpaqlarımızın azad olunması məsələsində istənilən an addımlar ata bilər. Çünki bu gün Azərbaycan Ermənistandan bütün parametrlərə görə güclüdür. Üstəlik də nəzərə alsaq ki, beynəlxalq hüquq da Azərbaycanın tərəfindədir Azərbaycanın gücü iki qat artmış olur. Bir halda da güclü haqlıdır prinsipi dünyada hakim roldadır, o zaman biz Ermənistandan həm gücümüzə, həm də beynəlxalq hüququn bizim tərəfimizdə olmasına görə güclüyük. Bunu işğalçı Ermənistan bilməlidir. Bunu dünyanı idarə etmək iddiasında olanlar da bilməlidirlər".

**❑ Etibar SEYİDAĞA,
"Yeni Müsavat"**

---

# Zahid Orucun zəngləri...



**Xalid KAZIMLI**

## Və ya YAP-çı xəstəni AVP-çinin vasitəsilə YAP-çı həkimlərə tapşırtdıran müsavatçının əhvalatı

**Dünən internet resurslarında bir montaj olunmuş videokadr vardı, yüksək dövlət vəzifəsinə yenicə təyinat almış deputat Zahid Orucdan bəhs edirdi.**

Videodakı birinci kadrda parlamentdə bir-iki il əvvəl Zahid Oruca göstərilən münasibət, bir də bir-iki gün öncəki, Sosial Təhqiqatlar Mərkəzinin rəhbəri təyin edilməsindən sonrakı yanaşma əks olunmuşdu.

Amma söhbət bunda deyil.

Mən Zahid Orucu 25 ildən artıqdır tanıyıram və uzun illər ona münasibətim müsbət olmayıb. Başqa partiyanın rəhbərlərindən biri olsa da, onun mövcud iqtidarı hakim partiyanın funksionerlərindən artıq müdafiə etməsi xoşuma gəlmirdi. Yazılarımda buna dair tənqidi fikirlər yer alırdı.

Ancaq 2006-cı ildə Zahid Oruca münasibətim bir qədər dəyişdi. Buna Azadlıq Radiosunda qatıldığımız bir veriliş səbəb oldu. Biz orada opponent idik. Fərqli mövqelərdən çıxış edirdik. Məhz həmin gün gördüm ki, Zahid Oruc olduğu kimi görünməyən adamdır, barəsində mediada yaradılmış obrazdan fərqlidir.

Həmin verilişdə aydın oldu ki, o, sərt tənqidi fikirlərə olduqca səbrli, təmkinli yanaşır, sözümü kəsmədən dinləyir, sonra əks arqumentlərlə çıxış edirdi - son dərəcə nəzakətli və kübar şəkildə. Verilişdən sonra da onunla 5-10 dəqiqə oradan-buradan danışdıq. Gördüm ki, Zahid Orucla mübahisə və müzakirə etmək rahatdır. Heç bir halda polemika qarşılıqlı təhqirlə yekunlaşmayacaq, dava düşməyəcək.

Ayrılanda Zahid Oruc öz telefon nömrəsini verdi, dedi: "Nə vaxt işin düşsə, zəng edərsən, əlimdən gələn köməyi əsirgəmərəm".

2014-cü ilə qədər Zahid Oruca işim düşmədi. 2014-cü ildə isə bir hadisə oldu...

***

Redaksiyada gündəlik işimlə məşğul idim. Zəng gəldi. Yaşlı kişi səsi dedi: "Tələbə yoldaşın F...-dir. "Respublikanskidə, uroloji şöbədə yatıram. Yanıma gələ bilərsən?"

"Gələrəm" dedim və işdən sonra getdim.

25 il əvvəl ayrıldığım tələbə yoldaşımı palatada görəndə əvvəlcə tanımadım. Axırıncı dəfə onu 3-4 il öncə AzTV-də zəhmətkeşlərin keçirdiyi bir tədbirdə YAP fəalı olaraq çıxış edəndə görmüşdüm, amma o zaman o, bu cür deyildi. Bir zamanlar şıq geyinən, günü yemək-içmək məclislərində keçən tələbə yoldaşımın saçı tökülmüş, xeyli qocalmışdı, xəstəydi. Yardıma ehtiyacı vardı, əli çatan bir yeri isə yox idi. Heç demə, bu gün səhər yanına gələnlərdən birində "Yeni Müsavat" qəzeti olub, alıb oxuyanda yazımı, şəklimi görüb, qərara gəlib ki, zəng eləsin, nə də olmasa, şəkli qəzetdə çıxan adamdır, tanışları olar.

Onun dializə, daimi müayinə və müalicəyə ehtiyacı vardı. Elə vaxt idi ki, heç olmasa parlamentdə üstünə qaçacaq bir tanış adam yox idi. Düşünərkən yadıma Zahid Oruc düşdü. Elə xəstənin yanındaca ona zəng etdim, durumu anlatdım. O, əlindən gələn köməyi edəcəyinə söz verdi. Mən də zarafata saldım, dedim, dünyanın işinə baxın, bir müsavatçı bir YAP-çının xahişini bir AVP üzvündən xahiş edir ki, o da onu YAP-çı həkimlərə tapşırsın. Zahid Orucun cavabı belə oldu: "Biz partiya üzvləri olmazdan əvvəl həmvətənik, problem yoxdur".

Ertəsi gün səhər Zahid Orucdan zəng gəldi, məlumat verdi ki, xəstəni xəstəxananın baş həkiminə tapşırıb və o, onun qayğısına qalacaq, müalicəsini şəxsən öz nəzarətinə götürəcək.

İki saatdan sonra Zahid Oruc yenidən zəng etdi, bildirdi ki, xəstənin yaşadığı rayonun qonşuluğundakı rayonda yerləşən diaqnostika mərkəzinin baş həkimin nömrəsini əldə edib, ona ya özü zəng edəcək, ya da Səhiyyə Nazirliyindən zəng etdirəcək ki, xəstənin sonrakı dializ məsələləri də həll olunsun.

Günortadan sonra deputat Zahid Oruc yenidən zəng etdi, bildirdi ki, o məsələ artıq həll olunub, lazımi adamlarla danışılıb, tələbə yoldaşın regional diqanostika mərkəzində vaxtaşırı pulsuz müalicə alacaq.

O hadisədən bir-iki il sonra Zahid Oruca yenidən bu kimi işlərimiz düşdü və o, hər dəfə məsələni həll edənə qədər çalışdı, bir dəfə də imkan vermədi ki, biz ona zəng vuraq, prosesin gedişini soruşaq, hamısında məhz özü zəng vurub məlumat verdi.

Onun xasiyyəti belədir, xeyirxah insandır, əlindəki imkan və səlahiyyətdən xalqın, seçicilərinin problemlərini həll etmək üçün yararlanır. Təbii ki, bu cür fəaliyyət göstərən başqa deputatlar da var: Qənirə Paşayeva, Aqil Abbas. Onlar da insanların problemini həll etmək üçün əllərindən gələni edirlər.

Fəqət bəzən ictimai rəydə bu şəxslərə qarşı qaralama kampaniyası aparılır, çox şey yazır, lağlağı edirlər.

Yaxşı, bunları da pisləyək, "vuraq", xeyirxahlıq etmələrinə peşman edək, onlar da o biri həmkarlarına qarışsınlar, görünməz olsunlar, onda yaxşı olacaq? Bəs bu ağır duruma düşən yetim-yesirin qolundan dar gündə kim tutacaq?

# Tiflisdən Bakıya "Rusiyadan qaz alıram" şantajı

## Gürcüstan hökuməti yenə "Şahdəniz" konsorsiumundan deyil, SOCAR-dan daha çox qaz qoparmağa çalışır

**Gürcüstan hökuməti Rusiyadan qaz almaq üçün danışıqlara başlayıb. Bu barədə qonşu ölkənin iqtisadiyyat və davamlı inkişaf naziri Giorgi Kobulia parlamentin İqtisadi siyasət komitəsinin iclasındakı çıxışı zamanı məlumat verib. Onun dediyinə görə, bu, ölkənin təbii qaza olan tələbatını tam ödəmək və qaz tədarükünün şaxələndirilməsi məqsədi daşıyır. Nazir deyib ki, qaz tədarükünün şaxələndirilməsi və optimizasiyası vacib təşəbbüsdür: "Biz bir deyil, daha çox tədarükçünün olması üçün şərait yaratmaq istəyirik. Bu məqsədlə Rusiya ilə danışıqlar aparırıq və ola bilsin ki, müəyyən həcmdə onlardan qaz alacağıq. Hazırda şərtlərin yaxşılaşdırılması istiqamətində danışıqlar davam edir".**

G.Kobulia vurğulayıb ki, "Qazprom" şirkəti ilə həm tranzit, həm də tədarüklə bağlı danışıqlar aparılır: "Bu, bizim şirkətlərə və əhaliyə qazı daha da aşağı qiymətə əldə etməyə imkan verəcək. Bununla bağlı potensial var və biz bunu, ola bilsin ki, hətta bu il əldə edəcəyik".

Qeyd edək ki, Gürcüstan təbii qaz ehtiyacını idxal hesabına təmin edir. 2019-cu ildə ölkənin 2 milyard 559,6 milyon kubmetr həcmində qaz istehlak edəcəyi proqnozlaşdırılır.

Xatırladaq ki, Gürcüstan hökuməti 2016-cı ildə də Rusiyadan qaz almaq təşəbbüsü ilə çıxış etmişdi. Hətta ölkənin Azərbaycan qazından imtina etməsi məsələsi də gündəmə gətirilmişdi. Həmin vaxt SOCAR prezidenti Rövnəq Abdullayevin başçılığı ilə Azərbaycandan Tiflisə böyük nümayəndə heyəti getdi. Aparılan danışıqlardan sonra Azərbaycandan Gürcüstana qaz ixracının artırılmasına dair razılaşma əldə olundu. Bundan əlavə, gürcülərin qiymət və digər şərtlərdə də güzəştlər əldə etdiyinə dair mətbuatda məlumatlar yayıldı.




2017-ci ildə Gürcüstan Rusiyadan 100 milyon kubmetr qaz alıb. 2018-ci ildə isə bu ölkənin tələbatı tam Azərbaycan qazı ilə təmin olunmalı idi. Ölkənin təsdiq olunmuş enerji balansında 2018-ci ildə ölkəyə proqnoz qaz nəqli 2,689 milyard kubmetr nəzərdə tutulmuşdu. Bunun 99,65 faizini Gürcüstan Azərbaycandan alacaqdı. O cümlədən 1,866 milyard kubmetr qazı Gürcüstana SOCAR, 813 milyon kubmetr qazı isə "Şahdəniz" konsorsiumu verəcəkdi. Qalan 0,35 faiz (9,41 milyon kubmetr) isə yerli hasilat olacaqdı.

İlin yekununda məlum oldu ki, ötən il Gürcüstana 266 milyon 687,8 min dollarlıq 2 milyard 501,5 milyon kubmetr həcmində Azərbaycan qazı nəql edilib. Energetika Nazirliyinin hesabatından aydın olur ki, ötən il Gürcüstana nəql olunan qazın həcmi 2017-ci ilə nisbətən 14 faiz faiz və ya 306,9 milyon kubmetr artıb.

Gürcüstana 2018-ci ildə nəql olunan qazın həcminin 1 milyard 101,8 milyon kubmetri Bakı-Tiflis-Ərzurum qaz kəməri ilə ("Şahdəniz" qazı) nəql edilib. Bu kəmərlə Gürcüstana ötürülən qazın həcmi 2017-ci ildən 286,9 milyon kubmetr və yaxud 35 faiz çoxdur. Qalan 1 399,7 milyon kubmetr qaz isə Azərbaycan Dövlət Neft Şirkəti tərəfindən Qazıməmməd-Qazax qaz xətti ilə nəql edilib və bu, illik müqayisədə 20 milyon kubmetr və yaxud 1,4 faiz çox olsa da, gürcülərin proqnozundakı həcmdən - 1 milyard 866 milyon kubmetrdən xeyli azdır.

Azərbaycanda bu il qaz istehsalında artım gözlənilir. "Şahdəniz 2" çərçivəsində hasilatın artması Gürcüstana daha çox qazın satılmasına imkan verəcək. Yeni Gürcüstanın tələbatının tam olaraq Azərbaycan qazı hesabına təmin olunmasında problem yaranmayacaq. Eyni zamanda Azərbaycan uzun illərdir etibarlı tərəfdaş olduğunu nümayiş etdirməkdədir. Bu halda gürcülərin hansı səbəbdən yenidən Rusiyaya, "Qazprom"a üz tutması maraq doğrur. Görünür, Gürcüstan hökuməti yenə "Şahdəniz" konsorsiumundan deyil, SOCAR-dan daha çox qaz qoparmağa çalışır. Çünki dünyanın nəhəng şirkətlərinin toplaşdığı konsorsiumdan qiymətdə endirim əldə etmək faktiki olaraq mümkün deyil. Görünən odur ki, Gürcüstan hökuməti yenidən Azərbaycan tərəfini təhdid etmək yolunu tutub.

**Neft-qaz sahəsi üzrə mütəxəssis, "Neft" Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şabanın dediyinə görə, Saakaşvilidən sonra bərqərar olmuş Gürcüstan hökuməti daim Rusiya ilə yaxınlaşmaq yollarını axtarır:** "Onlarda hətta baş nazirin Rusiya ilə əlaqələrin nizamlanması üzrə xüsusi nümayəndəsi vəzifəsi belə təsis edildi və Zurab Abaşidzeyə diplomat rangı verildi. Rəsmi Gürcüstan, hansının ki, 2008-ci ildən Kremllə diplomatik əlaqələri yoxdur, neytral ölkələrdə hər il Rusiya ilə danışıqlar aparır ticarət əlaqələrinin genişləndirilməsi yönümündə. Düzdür, müəyyən irəliləyişlər olsa da, Moskvanın şərtləri, deyərdim ki, sərt olaraq qalır və Kreml göstərmək istəyir ki, onun oyun qaydalarından çıxan hər bir ölkə yenidən əvvəlki çərçivəyə qayıtmaq istəyirsə, artıq bunun üçün bir növ "bac-xərac" ödəməlidir ki, bir daha belə səhvlərə yol verməsin. Bu baxımdan biz artıq müşahidə edirik ki, Moskva Gürcüstanla heç də yumşaq davranmır. Ona əvvəlki kimi Ermənistana nəql etdiyi qaza görə 10 faiz tranzit haqqını natural şəkildə ödəməkdən 2017-ci ildə imtina etdi və bunu pul şəklində ödəməyə başladı. Gürcüstan parlamentində açıqlanan rəqəmlərə görə, ölkənin qazancı buna görə ildə 29 milyon dollar azaldı və hazırda 11 milyon dollar təşkil edir".

**Ekspert hesab edir ki, Gürcüstan Moskva ilə ticarət əlaqələrini yaxınlaşdırmaq üçün daha böyük güzəştlərə getməyə hazır görünür:** "Söhbət təkcə kommersiya qazının alınması ilə bağlı yeni müqavilənin imzalanmasından getmir. Rəsmi Tiflis artıq Moskva ilə münaqişə bölgələrindən, yəni Abxaziya və Cənubu Osetiyadan "ticari dəhlizlərin" açılması məsələsini də müzakirəyə çıxarıb. O cümlədən Rusiya ilə nəqliyyat dəhlizlərini müzakirə edir. Bu isə Rusiya-Gürcüstan-Türkiyə və Rusiya-Gürcüstan-Ermənistan nəqliyyat məsələlərinin həll edilməsi və bunun vasitəsilə həm Gürcüstanın müəyyən tranzit qazanca malik olması, həm də qonşu ölkələr arasında ticarət partnyoru kimi nüfuz qazanmasına səbəb ola bilər. Yadınızdadırsa, Gürcüstan Azərbaycandan qaz ala-ala hələ neçə illər öncə İrandan qaz idxalını müzakirəyə çıxarmışdı. Təbii ki, bunun bir məqsədi də Azərbaycandan daha əlverişli şərtlərlə gələcəkdə qaz almasına şərait yaratmaqdır".

❑ **Dünya SAKİT,**
**"Yeni Müsavat"**

# Azərbaycan "neft bosları" sırasına daxil ola bilər

## Vladimir Putinin OPEK+ ölkələrinin yeni və daha sabit strukturunun yaradılması təşəbbüsünə rəsmi Bakı nə reaksiya verəcək?

**Rusiya prezidenti Vladimir Putin OPEK+ ölkələrinin yeni və daha sabit strukturunun yaradılması təşəbbüsünü irəli sürüb. Bu mövzuda da artıq müzakirələr başlayıb.**

Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov jurnalistlərə müsahibəsində deyib ki, dövlət başçısı bu məsələni "G20" ölkələrinin sammiti çərçivəsində Səudiyyə Ərəbistanının vəliəhd şahzadəsi Məhəmməd bin Salmanla da müzakirə edib. "Bu məsələ digər beynəlxalq tərəfdaşlarla aparılan müzakirələrdə də bəyənilib. Prezident Putin neftin qiymətləri üzrə dünya bazarında vəziyyətin sabitləşməsi üçün bu addımın səmərəli olacağını qeyd edib", - deyə mətbuat katibi əlavə edib.

Bu yaxınlarda OPEC+ ölkələri məsləhətləşmələri davam etdirmək və nəticə əldə etmək məqsədilə "Alyans" adlanacaq yeni strukturun yaradılmasını müzakirə edəcəklər.

"LUKoil" şirkətinin prezidenti Vahid Ələkbərov də OPEC+un taleyi barədə danışıb. "OPEC+ sazişinin taleyi İrana qarşı sanksiyalarla bağlı vəziyyətin aydınlaşmasından sonra aprel ayında müəyyənləşəcək", - deyə TASS V.Ələkbərova istinadən xəbər verir.

O deyib ki, hər şey apreldə İran ətrafında vəziyyətin necə inkişaf edəcəyindən, sanksiyaların nə dərəcədə güclü olacağından asılı olacaq.

Qeyd edək ki, ötən il dekabrın 7-də Neft İxrac Edən Ölkələr Təşkilatı (OPEC) və kartelə daxil olmayan ölkələrin nazirlərinin Vyana şəhərində keçirilən V iclasında neft hasilatının 2018-ci ilin oktyabr göstəricisi ilə müqayisədə gündəlik 1,2 milyon barel azaldılmasına dair razılıq əldə edilib. Yeni qərara əsasən, 2019-cu ilin yanvar ayından etibarən Azərbaycan gündəlik hasilatı təxminən 20 min barel azaltmaqla bağlı öhdəlik götürüb.

OPEC daim fəaliyyətdə olan qeyri-hökumət təşkilatı kimi 1960-cı il sentyabr ayının 10-14-də Bağdadda keçirilən konfransda yaradılıb. Əvvəlcə İran, İraq, Küveyt, Səudiyyə Ərəbistanı və Venesuela təşkilata daxil olub.

Bu 5 ölkəyə sonradan Qətər, İndoneziya, Birləşmiş Ərəb




Əmirlikləri, Əlcəzair, Nigeriya, Ekvador, Qabon və Anqola qoşulub. Ekvador 1993-cü ildə ya təşkilatın üzvlük haqqını ödəyə bilmədiyindən, ya da təşkilatın qərara aldığı miqdardan daha çox neft istehsal etmək istədiyindən təşkilatdan çıxıb. 2007-ci ildə isə İndoneziya təşkilatı tərk edib.

Təşkilatın qərargahı 1965-ci ildən Vyanada yerləşir. Hazırda OPEC-in 12 üzvü var.

"Yeni Müsavat" xatırladır ki, hazırda Azərbaycanla OPEK arasında sıx əməkdaşlıq mövcuddur və bu əməkdaşlıq OPEK+ formatında həyata keçirilir. Bu əməkdaşlıq çərçivəsində ötən dövrdə neftin qiymətinin müəyyən qədər artması, ən əsası isə sabitləşməsi və neft bazarının tarazlaşdırılması əldə olunub. OPEK Azərbaycanla işbirliyinin davam etməsində maraqlı tərəf kimi çıxış edir. Xatırladaq ki, 2016-cı il noyabrın 30-da OPEK üzrə gündəlik neft hasilatının 1,2 milyon barel azaldılaraq 32,5 milyon barelə endirilməsi barədə razılıq əldə olunub. Həmin il dekabrın 10-da isə Vyanada OPEK üzvləri ilə təşkilata daxil olmayan 11 ölkə, o cümlədən Azərbaycan ümumi hasilatın sutkada 558 min barel azaldılması barədə sazişə imza atıb. 2017-ci il mayın 25-də OPEK Nazirlər Şurasının 172-ci iclası çərçivəsində OPEK-ə üzv və qeyri-üzv dövlətlər arasında neft hasilatının azaldılmasına dair sazişin müddətinin 2018-ci ilin birinci rübünün sonunadək uzadılması barədə razılıq əldə olunub. Ötən il noyabrın 30-da isə OPEK Nazirlər Şurasının 173-cü iclası çərçivəsində Neft İxrac Edən Ölkələr Təşkilatına üzv və kartelə daxil olmayan dövlətlərin nazirlərinin üçüncü görüşündə neft hasilatının azaldılmasına dair sazişin müddətinin 2018-ci ilin sonuna kimi uzadılması ilə bağlı qərar qəbul olunub. OPEK və qeyri-OPEK ölkələrinin bu yeni razılaşmasına Azərbaycan da qoşulub.

2019-cu ildə Azərbaycanda neft hasilatının həcmi ötənilki səviyyədə qalacaq və orta hesabla 0,8 milyon barel/sutka təşkil edəcək. OPEK-in yanvar hesabatına qeyd olunur ki, Energetika Nazirliyinin məlumatlarına əsasən, Azərbaycanda 2018-ci ildə orta hesabla 792 min barel/sutka neft və kondensat hasil olunub ki, bu da 2017-ci ilin göstəricisindən 2 faiz çoxdur. Azərbaycanın Putinin təklifinə mövqeyi hələ ki açıqlanmayıb.

❑ **ORXAN,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 36 (7206) 15 fevral 2019

# "Amerika röyası" - okeanın o tayına getmək istəyənlər oxusun...

## Trampın Amerikasına köçməyin yolları və əngəlləri barədə bilmədiklərimiz

**Amerikada yaşamaq bir çox ölkələrin vətəndaşlarının arzuları sırasındadır. Eləcə də azərbaycanlıların "Amerika röyası" var. Amma son illərdə bu axına qoşulanların sayı artdığı kimi, dələduzlara tuş gələn, röyasını kabusa çevirənlər də var. Bəs Amerikada yaşamaq istəyənlərin keçdikləri yol hansıdır? Daha dəqiq desək, Amerikada yaşamaq üçün hansı addımlar atılmalıdır?**

"Yeni Müsavat" bununla bağlı bir arayış hazırlayıb. Öncə ondan başlayaq ki, Amerikaya köçmək istəyənlərin ən geniş istifadə etdiyi üsul "Greencard" variantına baş vurmaqdır. "Greencard" ömürlük verilir. Onu aldıqdan sonra ABŞ-ın 50 ştatından istənilən birində yaşaya bilər və istədiyiniz vaxt digər ştata köçə bilərsiniz. Hər bir ştatda sizə bərabər hüquqlar verilir və istədiyiniz ştatda ya işləyə, ya da təhsil ala bilərsiniz.

ABŞ dövləti az gəliri olan immiqrantlara müxtəlif şəkillərdə köməkliklər göstərir. Hər bir ştatın immiqrantlar üçün müxtəlif paketləri vardır. İmmiqrantlar müxtəlif məbləğlərdə dövlətdən maliyyə yardımı, pulsuz ərzaq almaq üçün talonlar alırlar. Bundan başqa, dövlətin digər güzəştləri, məsələn, sağlamlıq, sosial sığorta, pensiya, vergilərdən azad olma və başqalarını əldə edə bilərlər.

İmmiqrantlara işlərin tapılmasında dövlət yaxından köməklik göstərir. "Greencard" sahibi olduqdan sonra istər özəl sektorlarda, istərsə də dövlət sektorlarında istədiyiniz işdə işləyə bilərsiniz. İşlədiyiniz hər bir yerdə ABŞ vətəndaşları ilə 100% bərabər hüquqlara malik olursunuz.

Daimi vətəndaş olduqdan sonra siz, ABŞ vətəndaşları kimi, istənilən məqsəd üçün (məs. maşın almaq, ev almaq və s.) sadə şərtlərə kreditlər götürə bilərsiniz.

Bundan başqa, ABŞ universitetləri dünyada ən güclü və prestijli olmalarına görə tanınıblar. Xarici vətəndaşlar üçün bu universitetlərdə təhsil almaq çox bahadır. Lakin "Greencard" aldıqdan sonra siz ABŞ-ın istənilən universitetində ya pulsuz, ya da çox güzəştli qiymətlərlə təhsil ala bilərsiniz.

Bundan başqa, "Greencard" vizasını aldıqdan sonra siz artıq ABŞ vətəndaşları ilə eyni hüquqa malik olursunuz və yerli vətəndaşlara hansı güzəştlər aiddirsə onlar sizə də şamil olunur.

### Azərbaycanlıların "Greencard" udmaq şansı nə qədərdir?

Hazırda "Greencard" proqramında qalib gəlmək şansı təxminən 1 faizdir. Yəni 100 nəfər müraciətçidən təxminən 1-i qalib gəlir. Ümumiyyətlə, proqramda qalib gəlmək şansları coğrafi bölgələrə görə müəyyən edilir. Hansı bölgələrdən son illərdə Amerikaya az immiqrasiya olunubsa, həmin bölgələr üçün yerlər çox olur.

Afrika - *50.00%*

Avropa (Azərbaycan da buraya aiddir) - *30.98%*

Asiya - *15.00%*

Cənubi və Mərkəzi Amerika *-15.00%*

Okeaniya - *50%*

Şimali Amerika - *0.02%*

Avropa qitəsi qaliblərin payına görə 2-ci yerdədir və Azərbaycan da oraya aiddir. Nəzərə alın ki, bir ildə bir ölkədən təxminən 3500 nəfər gedə bilər. Ötən illərdə Azərbaycandan bir ilə təxminən cəmi 300-400 nəfər gedib. Bu da onu göstərir ki, Azərbaycan az immiqrasiya edən ölkələrin içindədir və azərbaycanlıların qalib gəlmələri daha asandır. Yaxşı xəbər budur ki, nə qədər çox adam müraciət etsə, bir o qədər də yerlər çoxalır. Yəni ötən illərlə müqayisə edəndə Azərbaycandan hər il 10 qat çox adam Amerikaya gedə bilər.



### Vətəndaşlığı itirmirsiz və Amerikada yaşayırsız

ABŞ dövlətinin ildə 1 dəfə keçirdiyi pulsuz lotereya proqramına müraciət etməklə "Greencard"ı əldə etmək mümkündür. Bu proqrama qoşulmaq Amerikada (və ya xaricdə) qanuni şəkildə yaşamağın və ya işləməyin ən asan yoludur. Belədə isə "Greencard" insana çox şey qazandırır. Bunlardan biri ailə üzvlərinizlə birlikdə, Azərbaycan vətəndaşlığınızı itirmədən Amerikada daimi yaşamaqdır. Digəri Amerikada qanuni şəkildə istədiyiniz işdə işləmək və ya oxumaq, eləcə də Azərbaycanı Amerikada tanıtmaq imkanı qazanmaqdır.

Müraciət edə biləcək şəxslərin kimliyi ilə bağlı hər hansı məhdudiyyət yoxdur. 17 yaşdan yuxarı hər kəs (və ya orta məktəbi bitirmiş hər kəs) bunun üçün müraciət edə bilər. Üstəgəl, müraciət etmək üçün ingilis dili tələb olunmur.

Konqresin təsdiqlədiyi Müxtəliflik İmmiqrant Viza Proqramı hər il Dövlət Departamenti tərəfindən idarə olunur. Milliyyət və İmmiqrasiya Aktının 203-cü bölməsi (c) Birləşmiş Ştatlara immiqrasiya göstəriciləri tarixən aşağı olan ölkələrin vətəndaşları "müxtəliflik immiqrantları" adlanan viza ilə (DV) təmin edir.

Lotereyada seçilmiş ərizəçilər müxtəliflik vizası almaq üçün sadə, ancaq sərt tələblərə uyğun gəlməlidir. Kompüter ərizəçilər arasında təsadüfi seçim aparacaq.

Vizalar altı coğrafi region üzrə aparılır və hər bir regionda heç bir ölkə bir il ərzində mümkün DV lotereyalarının yeddi faizindən çoxunu ala bilməz.

Bu, işləmək üçün xarici ölkələri, xüsusən də Amerikanı "gözaltı" edən vətəndaşlarımız üçün ciddi informasiya sayılır.

### "Greencard" sahibinin hansı vəzifələri var?

6 aydan az müddət olmamaq şərti ilə ABŞ-da yaşamaq. Bu tələb gələcəkdə sizin vətəndaşlıq almaq və ya rezident statusunuzun saxlanılması üçün lazımdır.

Əgər kart sahibi ABŞ-da minimum 6 ay yaşayır və qısamüddətli xarici səfərlər edirsə, bu halda heç bir problem olmayacaq. Əgər son kart sahibinin son səfərindən 6 aydan çox, ancaq 1 ildən az bir müddət keçibsə, ABŞ-a qayıdan zaman ondan niyə bu qədər uzun müddət xaricdə olduğu haqqında maraqlana bilərlər. Bu zaman rezident niyə bu qədər uzun müddət xaricdə olduğu haqda əsaslı dəlil gətirməlidir.

Əgər "Greencard" sahibi uzun müddət ABŞ-dan kənarda olacaqsa, bu zaman o, xüsusi miqrasiya sənədi "Form 131 - Re-entry Permit" (Uzun müddətdən sonra giriş icazəsi) üçün müraciət etməlidir. Əks halda kart sahibi geri dönən zaman sərhəddə problemlərlə üzləşəcək və ya onun "Greencard"ı ləğv edilə bilər.

1 ildən çox müddət ölkə xaricində olduğunuz zaman şəxsin "Greencard"dan imtina etməsi prezumpsiya əmələ gəlir, həm də vətəndaşlıq almaq məqsədi üçün yaşayış müddəti də pozulur.

Kart sahibi bütün mövcud miqrasiya qanunlarına tabedir. Bu o deməkdir ki, əgər miqrasiya xidməti şəxsin bu sənədi yalan məlumatlar, fırıldaq yolu ilə əldə etdiyi qənaətinə gəlsə və ya kart sahibi cinayət törətsə "Greencard" ləğv oluna bilər.

"Greencard" sahibi ünvanını dəyişdiyi andan 10 gün ərzində miqrasiya xidmətini bu haqqda məlumatlandırmalıdır.

### Bu "Möcüzəvi kart"ı əldə etmənin üsulları nədir?

"Greencard" əldə etməyin üsulları müxtəlifdir. Bunlardan ən başlıcası ailələrin birləşməsi məqsədilə həyata keçirilən miqrasiyadır. ABŞ vətəndaşları və daimi sakinləri Vətəndaşlıq və Miqrasiya işləri üzrə xidmətə müraciət edərək, öz qohumlarına miqrasiya vizasının verilməsini istəyə bilərlər.

21 yaşından yuxarı ABŞ vətəndaşı öz həyat yoldaşına, valideynlərinə, uşaqlarına və qardaş-bacılarına görə müraciət edə bilər. ABŞ-ın qanuni daimi rezidentləri (kart sahibləri) öz həyat yoldaşlarına və 21 yaşına çatmamış, subay övladlarına miqrasiya vizasının verilməsinə müraciət edə bilərlər.

ABŞ-da daimi yaşayış sənədi sahiblərinin sayı illik kvota ilə məhdudlaşdırılır və ilə 480 000-dən çox ola bilməz.

İkinci üsul EB-1/EB-2 vizaları üzərində iş miqrasiyasıdır.

Bu üsul menecerlər və beynəlxalq şirkətlərin idarəçilərinə uyğundur. Bu vizalar miqrasiya xətti ilə verilir və onun əsasında daha sonra "Greencard" əldə etmək mümkündür. Bu isə əməkdaşa daimi iş əsasında ABŞ-a istənilən zaman gəlib-getmək imkanı verir.

EB-1 vizasını əldə etmək üçün ABŞ-dakı şirkət ən azı 1 ilə ərzində əhəmiyyətli əməliyyatlar həyata keçirməlidir. Bu vizanı əldə etmək istəyən əcnəbi şəxsin həmin şirkətdə vəzifəsi idarəedici və ya rəhbərlikdə olmalıdır.

Eyni zamanda müraciət edənin (ərizəçinin) şirkətində ona tabe olan kifayət qədər işçisinin olması tələb olunur. Bundan əlavə namizəd ABŞ səfərindən 3 il əvvəl ixtisaslaşmış xarici şirkətdə 1 il ərzində menecer və ya rəhbər vəzifəsində çalışmış olmalıdır.

Bir qayda olaraq əcnəbi şəxsi işə dəvət edən amerikalı şirkətin illik gəliri 70000 dollardan az olmamalıdır. Bu göstərici şirkətin ərizəçiyə (dəvət etdiyi xarici əməkdaşın) əmək haqqını qarşılayacağının sübutudur.

İnvestor vizası üzrə miqrasiya imkanları da mövcuddur. EB-5 vizası da miqrasiya xətti ilə verilir və onun da əsasında daha sonra "Greencard" əldə etmək mümkündür. Müəyyən məbləği ABŞ-a yatırdıqdan və həmin vəsaitin qanuni mənbədən əldə olduğunu təsdiqlədikdən sonra bu sənədi əldə edərək, bütün ailənizlə ABŞ-a immiqrasiya edə bilərsiniz.

EB-5 vizasını əldə etmək istəyən şəxsin investisiyası ABŞ-da 10 iş yeri (açmalı) yaratmalıdır. Bu üsul kifayət qədər böyük maliyyə vəsaiti tələb edir, lakin öz biznesini idarə etmək istəməyən, ancaq ABŞ-a köçək arzusunda olanlar üçün ən gözəl variant məhz budur. Bu vizaya daxil önəmli üstünlükər ərizəçidən milliyyət, dil biliyi, xüsusi iş təcrübəsi və ya təhsilin tələb olunmamasıdır.

TEA (yüksək işsizlik səviyyəsi) və ya kənd təsərrüfatı kateqoriyasına aid layihəyə investisiyanın məbləği 500 min dollardır. Qeyri-TEA kateqoriyası layihələrində isə bu rəqəm 1 milyon dollardır.

Bundan əlavə, siyasi sığınacaq və ya lotereyada qalib gələrək, "Greencard" əldə etmək variantları var. Lakin biz onları nəzərdən keçirməyəcəyik, çünki onlar etibarlı variant deyillər. Misal üçün, ABŞ Dövlət Departamentinin məlumatına görə, 2013-cü il üçün 12 milyon lotereya iştirakçısından cəmi 105 min nəfəri "Greencard" qazanıb.

### Dələduzların əlinə düşməmək üçün çıxış yolları

Amma bəzi hallarda dələduzların da əlinə düşmək mümkündür. Bu zaman anketi doldurmaq üçün bəzi məqamlara diqqət yetirmək lazımdır:

1. Ən başlıcası ABŞ Dövlət Departamentinin rəsmi saytında qeydiyyatdan keçməkdir - http://dvlottery.state.gov/ttps://dvlottery.state.gov/(S(cj0nor44vveeof3p04y41sds))/default.aspx

2. Anketin doldurulması zamanı sizdən inanılmaz məbləğ istəyən və ya müsabiqənin nəticələrinə təsir edə biləcəklərini deyən sayt və ya təşkilatlara inanmaq olmaz. Unutmayın, bundan başqa, biz şəxsi məlumatlarımızı üçüncü şəxsə verməklə özümüzü riskə atırıq.

"Greencard"da iştirak tamamilə ödənişsizdir.

Tez-tez elə olur ki, həmin kontorlar hər il sizin məlumatlarınızdan istifadə edir və bir neçə il sonra uğur qazanmaq üçün qeydiyyatdan keçmək istəyəndə sayta dərhal sizi bloklayır.

Diqqət yetirmək lazımdır ki, bütün məlumatlar sizin xarici pasportunuzdakılarla eyni olmalıdır. Səhvlər sistemin sizdən şübhələnməsinə və müraciətdən imtinaya səbəb ola bilər.

Həmçinin unutmaq olmaz ki, təsadüfi lotereyalar "Greencard"ın qazanılmasına zəmanət verə bilməz. Bundan başqa, bütün zəruri sənədləri toplamaq və müsahibə mərhələsi kimi çətin yolu keçmək lazımdır. Siz bunlarla yanaşı, tibbi yoxlamalardan keçməli olacaqsınız.

Əgər düşünürsüzsə ki, "Greencard"ı udmaqla pulunuz olmadan ABŞ-a köçə biləcəksiz, yanılırsız.

"Greencard" sizə ABŞ vətəndaşlarına verilən qədər hüquqlar təqdim edir. Dövlət sizi yaşayış yeri və işlə təmin etmir. Amerikaya köçən zaman özünüzü əsrlər əvvəl bura gələn ilk miqrantlar kimi hiss edəcəksiniz.

### Tramp Amerika röyasını necə çətinləşdirir?

ABŞ prezidenti Donald Tramp vətəndaşlıq haqqında qanuna dəyişiklik etmək niyyətindədir. Bu barədə D.Tramp ötən ilin sonlarında HBO telekanalındakı "Axios" sənədli serialı üçün verdiyi müsahibədə söyləyib. Dəyişiklik ABŞ-da doğulan miqrant uşaqlarının artıq ABŞ vətəndaşlığı almayacağını nəzərdə tutur. ABŞ prezidenti qeyd edib ki, hamı ona bu qərarı qəbul etmək üçün konstitusiya dəyişikliyinə ehtiyac duyulduğunu bildirib.

"Amma bilirsiniz, nədir? Buna ehtiyac yoxdur. Fərman imzalamaqla, bununla da Konqresin aktından yayınmaqla bu barədə qərar qəbul edə bilərəm", - D.Tramp vurğulayıb. Amerika lideri həmçinin ABŞ vətəndaşlığı olmayan şəxslərin Birləşmiş Ştatlara gəldikdən sonra uşaq sahibi olmaqla yeni doğulanlara avtomatik ABŞ vətəndaşlığı qazandırması halını gülünc adlandırıb.

**❑ Sevinc TELMANQIZI, "Yeni Müsavat"**

# Trampın müsəlmanlara qarşı çıxmasının səbəbləri

**ABŞ prezidenti Donald Tramp son vaxtlar antisemitizm mübahisəsi ilə gündəmdə olan Konqresin müsəlman üzvü İlhan Omarı istefaya çağırıb.**

Ağ Ev rəhbəri islamçı konqresmeni istefaya çağırır, 7 müsəlman ölkəsinə embarqo və sanksiya qoyur, Qüdsü İsrailin paytaxtı elan edir; **Sərdar Cəlaloğlu:** "Özünü yəhudilərin himayəçisi kimi aparır"

Ağ Ev rəhbəri bildirib ki, antisemitizmə ABŞ Konqresində yer yoxdur. İ.Omar haqqındakı antisemitizm iddiaları ilə bağlı twitterdə açıqlama vermişdi.

Amerikalı yəhudilərdən üzr istəyən Omar İsrailin ABŞ-dakı lobbiçilik fəaliyyətinin gözardı edilməməsi ilə bağlı xəbərdarlıq etmişdi.

Trampın isə ona nifrət dolu çağırışı və istefaya dəvəti ABŞ prezidentinin müsəlmanlara qarşı ilk aqressiyası deyil. Hələ hakimiyyətə gəldiyi ilk vaxtlarda Ağ Ev sahibi 7 müsəlman ölkəsinin vətəndaşlarının ölkəyə girişini qadağan edən qərar imzalamışdı.

Qərara əsasən Suriya, İran, İraq, Liviya, Somali, Yəmən və Sudan vətəndaşlarının ABŞ ərazisinə girişi 90 günlüyünə qadağan olunur, bundan əlavə, ABŞ-a həmin ölkələrdən olan qaçqınların qəbulu 120 günlüyə dayandırılır.

Paralel olaraq, onun İrana iqtisadi sanskiyalar tətbiq etməsi, Avropa dövlətlərini də bu sanksiyalara qoşulmağa çağırış etməsi göstərir ki, Tramp müsəlman dünyasına qarşı münasibətdə heç də əvvəlki prezidentlərdən fərqlənmir.

Buş, Obama ərəb ölkələrinin müharibə, qan, terrorla viran qoyulmasında əsas aparıcı liderlər idisə, Tramp biznesmen olduğu üçün daha çox iqtisadi aspektdən onları sıxışdırmağa, müxtəlif embarqolar qoymağa üstünlük verir.



Maraqlıdır ki, Amerikada əcnəbilər tərəfindən öldürülənlərin heç birinin qatili Trampın ABŞ-a girişlərinə qadağa qoyduğu 7 ölkənin vətəndaşı olmayıb. ABŞ-da ən çox amerikalı öldürən arasında BƏƏ, Səudiyyə Ərəbistanı kimi ölkələrin vətəndaşları yoxdur.

Hətta "Vaşinqton Post" qəzetinin yazarı Camal Qaşıqçını konsulluqda doğramaqda ittiham olunan Səudiyyə krallığına qarşı belə sərt mövqe nümayiş etdirməyib.

Müsəlmanlara qarşı tutduğu mövqedən fərqli olaraq, Tramp İsrailə sevgi nümayiş etdirir. Çünki onunla ittifaqda olan yevangelist seçicilər nisbətən kiçik, lakin güclü dəstək bazasının mühüm elementini təşkil edirlər.

Yevangelist seçicilər 2016-cı ildə Trampa böyük dəstək veriblər, həm də əvvəlki prezidentliyə namizədlərdən daha yüksək səviyyədə - 81%, yeni hətta yevangelist oğul-Corc Buşdan da çox.

Təsadüfi deyil ki, C.Buşu dəstəkləyən yevangelistlər İraqın işğalını dəstəkləyirdilər. Onların dəstəklədiyi növbəti prezident - Tramp da müsəlman dünyasına acıqlı davranır.

Trampın Qüdsü paytaxt kimi tanıması da, onun yəhudilərə olan sevgisi, müsəlmanlara kini ortaya qoymuş oldu.

Qüds məsələsi yevangelistlər üçün çox vacibdir, çünki Məbəd Dağında yəhudi-xristian hakimiyyəti bərpa olunmalıdır. Bu həyati vacib məsələdir, çünki onun izahına görə, Vəhy kitabında göstərilən Qiyamət Günü baxımından Məbəd bərpa olunmalıdır.

Axir əz-zamana - canlıların və ölülərin Yer üzündən qurtulacağı, bədənləri və ruhlarının göylərdə qorunub saxlanılacağı və qəzəblərini günahkarlara yönəldəcəkləri günə dair bəsirət fundamental xristian inancıdır.

**Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlu "Yeni Müsavat"a antisemitizmin yayğın məsələ olduğunu açıqladı. O, Rəsulzadənin bir fikrini yada saldı:** "Rəsulzadə deyirdi ki, paniranizm yaratmaq üçün bizi pantürkizmdə ittiham edilər. İndi antisemitizm ortaya atılıb ki, yəhudilər bunu deyənlərə qarşı mübarizə aparsın. Antisemitizm yəhudilərə qarşı siyasət olub, onları gettolarda saxlayırdılar, təmas imkanı vermirdilər. Əgər müsəlman konqresmen belə addım atmırsa, ona antisemitist adı qoymaq olmaz. Ona görə bütün xalqlar tənqidə açıq olmalıdır".

**ADP sədrinin sözlərinə görə, Amerikada ortadoks yəhudilər İsrailin genişlənməsinin əleyhinə çıxırlar:** "Trampın ixtiyarı yoxdur ki, kimisə Konqresdən istefaya çağırsın. Bu, demokratiyaya ziddir. Trampın bu mənada yəhudilərə lobbiçilik eləməsi düzgün deyil. O, iş adamıdır, şəxsi əlaqələri var, özünü yəhudilərin himayəçisi kimi aparır. Təbii ki, heç kəs yəhudiləri sıxışdırmağın tərəfdarı olmamalıdır, yəhudilər də heç bir xalqı sıxışdırmamalıdır. Bu gün İsrail dövləti var, Fələstin yoxdur. Bu, BMT qərarına ziddir. ABŞ hüququn aliliyinə hörmət edirsə, ortaya mövqe qoymalıdır. Təəssüf ki, bu gün beynəlxalq hüquq siyasi iradəyə tabe etdirilib".

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**

# İranı qana bulayan "Ədalət Ordusu" və terrorçuların arxasındakı güclər

İran xarici işlər naziri Cavad Zərif ABŞ-a işarə edib; 41 nəfərin öldüyü teraktı təşkil edən "Ceyş əl-Ədl" haqda nə bilirik?

**Fevralın 13-də İranın cənub-şərqində Sistan və Bəlucistan əyalətlərində terror aktı baş verib. İran İnqilab Keşikçiləri Korpusunun (Sepah) hərbçilərini daşıyan avtobusun partladılması nəticəsində ölənlərin sayı 41 nəfərə çatıb.**

Ölənlərin əksəriyyəti "Sepah" üzvləridir, eyni zamanda bir neçə nəfər yerli sakin də ölənlər arasındadır. Terror aktı törədən kamikadze hərbçiləri daşıyan avtobusa yaxınlaşaraq özünü partladıb. Terror aktına görə məsuliyyəti Sistan-Bəlucistan vilayətində fəaliyyət göstərən "Ceyş əl-Ədl" terror qruplaşması öz üzərinə götürüb.

Terror aktı İranda İslam inqilabının 40 illiyinin qeyd olunmasından iki gün sonra, Polşa paytaxtı Varşavada ABŞ-ın təşəbbüsü ilə keçirilən və əsasən İrana həsr olunduğu deyilən iki günlük Yaxın Şərq konfransının başladığı gün keçirilib. İran xarici işlər naziri Cavad Zərif deyib ki, terror aktının məhz Varşava konfransı ilə eyni gündə baş verməsi təsadüfi deyil. Zərif terror aktına görə dolayısı ilə ABŞ-a işarə edib.

Qeyd edək ki, terror aktını törədən "Ceyş əl-Ədl" daha əvvəl də İran ordusunu hədəfə alan terror aktları törədib. 2018-ci ilin oktyabrında qruplaşma İran ordusunun 14 hərbçisini girov götürmüşdü. Ötən ilin dekabrında isə Çabahar şəhərində baş verən terror aktı nəticəsində 2 nəfər ölüb, 40 nəfər isə yaralanıb. Bu il fevralın 2-də yenə eyni qruplaşma bu dəfə Sistan-Bəlucistan əyalətinin Nukşehr şəhərində terror aktı törədib. Terror nəticəsində İran İslam könüllüləri - "Bəsic" təşkilatının 6 üzvü yaralanıb, bir nəfər isə ölüb.

"Ceyş əl-Ədl" qruplaşması uzun illərdir İrana qarşı terror fəaliyyəti həyata keçirir. Bu təşkilatın adı ərəb dilindən tərcümədə "Ədalət Ordusu" mənasını verir.

2012-ci ilə qədər qruplaşma "Cundullah" (Cundullah "Allahın ordusu" deməkdir - K.R.) adlı radikal terrorçu təşkilatın tərkibində olub. "Cundullah" ilk dəfə İranda 2003-cü ildə terror aktları törədib və bundan sonrakı illərdə qruplaşma çoxlu sayda terror hücumları həyata keçirib. Ancaq 2010-cu ildə İran kəşfiyyat xüsusi əməliyyat nəticəsində "Cundullah"ın lideri Əbdülməlik Riqini ələ keçirib. Daha



sonra Riqi İranda asılaraq edam olunub.

2012-ci ildə isə "Cundullah" qalıqları "Ceyş əl-Ədl" adlı təşkilat yaradıb. Yeni təşkilata Səlahəddin Faruqi ləqəbli Əbdürrəhim Mollazadə rəhbərlik etməyə başlayıb. "Cundullah" kimi "Ceyş əl-Ədl" də İranın Sistan-Bəlucistan əyalətində fəaliyyət göstərir. Təşkilatın əsas şüarı İrana qarşı mübarizə, Sistan-Bəlucistanın İrandan ayrılıb Pakistana birləşməsidir. Bu səbəbdən də təşkilatın və daha əvvəl "Cundullah"ın əsas dəstəyi Pakistanda olub. "Ceyş əl-Ədl" 3 qrupdan ibarətdir. Bu qruplara öldürülən liderlərin adı verilib. Birinci qrupa "Bdülməlik Mollazadə", ikinci dəstəyə "Nimətullah Tövhidi", üçüncü qrupa isə "Şeyx Ziya" adı verilib.

Qruplaşma üzvlərinin dəqiq sayı bilinmir. Ancaq bir sıra araşdırmaçıların fikrincə, "Ceyş əl-Ədl"in 500-ə yaxın üzvü var, onlardan 350 nəfəri aktiv silahlılardır. Bu qüvvələrin bir qismi İran, bir qismi isə Pakistan ərazisindədir. Qruplaşma 2015-2016-cı illərdə İran-Pakistan sərhədində 40-dan artıq terror aktı törətdiyini bildirsə də, İran hökuməti bu rəqəmin şişirdildiyini bildirir.

Bu qruplaşmaya görə İran və Pakistan arasında zaman-zaman soyuqluq yaranıb. Digər tərəfdən, bu qruplaşma sünniləri müdafiə etdiyini iddia etdiyi üçün bölgədə onsuz da həssas olan dini vəziyyəti daha da gərginləşdirir. Sistan-Bəlucistan vilayətinin mərkəzi Zahedan şəhəri zaman-zaman terror hücumlarına səhnə olur. Yaxın keçmişdə bir neçə dəfə İran rəsmi şəxsləri Pakistan hökumətini terror təşkilatını himayə etməkdə ittiham edib. Ancaq Pakistan hökuməti bu iddiaları qəbul etmir. Ötən il Pakistanda seçkilər nəticəsində hakimiyyətə gələn İmran Xan İranla münasibətləri istiləşdirib. Hazırda iki ölkə hökumətləri arasında yaxın münasibətlər mövcuddur.

Qeyd edək ki, Tramp hakimiyyətə gəldikdən sonra Vaşinqtonun İrana qarşı siyasəti yenidən sərtləşib. ABŞ hökuməti İranı terrorizmi dəstəkləməkdə ittiham edib. 2017-ci ilin yayında Tramp ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin İran əməliyyatları bölməsinə İrana qarşı aqressiv münasibəti ilə tanınan təcrübəli kəşfiyyatçı Maykl D'Andreanı təyin edib. MKİ-nin ən təcrübəli və müsəlman aləmini yaxşı bilən kəşfiyyatçısı D'Andrea həm də "Ayətullah Mayk" kimi tanınır. ABŞ-ın bin Ladeni öldürdüyü əməliyyatdan bəhs edən filmdə də xarakteri yer alan təcrübəli kəşfiyyatçı Pakistan, Yəmən kimi ölkələrdə pilotsuz aparatlarla hava zərbələrində rolu olmuş kəşfiyyatçıdır. 2008-ci ilin fevralında Dəməşqdə Hizbullah komandiri İmad Muğniyənin qətlində də Maykl D'Andreanın adı keçir.

Elə həmin il iyunun 7-də İran paytaxtında görünməmiş terror hücumu baş verib. Ölkə parlamenti, inqilab lideri Ayətullah Xomeyninin məqbərəsində törədilən terror nəticəsində ölənlərin sayı 16 nəfərə çatıb. Terror qurbanlarının əksəriyyəti parlament binasına hücum zamanı öldürülüb. Onlardan birinin - sağ ələ keçənin isə kadrları yayılıb. Görünür ki, terror aktı ciddi şəkildə, yüksək peşəkarlıqla hazırlanıb. Terrorçuların İran vətəndaşları olduğu bildirilir.

2018-ci ildə İranın İraqla sərhədində "Sepah" qüvvələrinin postuna hücum edən kürd silahlıları 10 hərbçini öldürmüşdü. Sentyabrda isə ərəblər yaşayan Əhvaz şəhərində hərbi parada törədilən hücum nəticəsində 25 nəfər ölüb, 70 nəfər isə yaralanıb. Bu hadisənin məsuliyyətini əvvəlcə Əhvazın ərəb separatçı qruplaşması, daha sonra isə İŞİD üzərinə götürüb. Təbii ki, rəsmi Tehran bu hücumlara görə ABŞ-ı, eləcə də onun regiondakı müttəfiqləri olan ərəb ölkələrini ittiham edib.

Diqqət etsək, məhz son 3 ildə törədilən və ya aktivləşən hücumların coğrafiyası maraq doğurur. Şərq sərhədində etnik bəlucların yaşadığı Pakistanla sərhəd bölgəsi, qərb sərhədində kürd terrorçuları və nəhayət, etnik ərəblər. Hər üç etnik qrup İranda mərkəzi hökumətə qarşı hər an silahlanmaya hazır olan və xarici ölkələrlə bağları olan bölgələrdir. Başqa sözlə, həm bəluclar, həm kürdlər, həm də ərəblər İranın həssas nöqtələridir. Bu hücumlar həm də onu göstərir ki, Tehranın zəifledilməsi layihəsində məhz adıçəkilən 3 etnik qrupdan istifadə olunacaq və ya olunur. Bir mənada bu, İrana qarşı "hibrid müharibənin" daha bir əlamətidir.

❑ **Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 36 (7206) 15 fevral 2019

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# “Vəziyyət dəyişməsə, hərbi əməliyyatlar bərpa olunacaq”

## Ermənistanın təcrübəsiz hökumət başçısı növbəti aprel döyüşlərinə zəmin hazırlayır; ekspertlər isə işğalçı ölkənin manevr imkanlarının tükəndiyini söyləyirlər...

**Ermənistan daxilində mövcud olan gərgin ictimai-siyasi münasibətlər, qarşılıqlı ittihamlar, sosial durumdan doğan narazılıqlar artan xətt üzrə davam edir. Hazırda parlamentdə hökumətin fəaliyyət proqramı müzakirə mövzusudur ki, bu zaman da azsaylı müxalifət təmsilçiləri ilə hakimiyyət arasında “atışmalar” gedir.**




“Yeni Müsavat” erməni mediasına istinadən xəbər verir ki, artıq neçə gündür Alaverdi misəritmə zavodunun işçilərinin keçirdiyi etiraz aksiyası, nəhayət, 13 fevralda, saat 20.30-da dayandırılıb və etirazçılar bağladıqları İrəvan-Tiflis dəmir yolunu açıblar. Lori qubernatoru aksiyaçılara söz verib ki, cümə günü hökumət nümayəndələri ilə görüşüb tələbləri çatdıracaq. Ekoloji fəlakətə görə qapadılmış zavodun əməkdaşı Armen Kirakosyan deyib ki, onlar Alaverdidə bu mövzu ilə məşğul olan baş nazirin müavini Tiqran Avinyanı gözləyirlər. Etirazlar eşidilməsə, onlar yenidən iki dövlətin arasındakı dəmiryolunu bağlayacaqları ilə hədələyiblər.

Üstəlik, İrəvanın mərkəzində də də lokal etirazlar bir-birini əvəzləyir. Baş nazir Nikol Paşinyan isə rəqiblərini sıradan çıxartmağa çalışır və paralel olaraq talanmış büdcəni doldurmağın yollarını axtarmaqdadır. Bu günlərdə N.Paşinyan yüksək tribunadan bəyan edib ki, zərurət yaransa günahsızlıq prezumpsiyası günahkarlıq prezumpsiyası ilə əvəzlənəcək. Bu da “keçid dövrü ədalət mühakiməsi” olacaq".

Onun sözləri birmənalı qarşılanmayıb. “Xalqdan və ölkədən oğurlanmış pullar məsələsi var. Hazırda hökumət qanunsuz yolla əldə edilmiş əmlakın məhkəmə hökmü olmadan müsadirə edilməsi mexanizmini müzakirə edir. Bu formul qəribə görünə bilər, amma korrupsiya ilə mübarizədə normal praktikadır, yəni insan haqlarının məhdudlaşdırılması sayılmır” - Paşinyan deyib.

**“Politekonomiya” araşdırma institutunun direktoru Andranik Tevanyan özünün facebook səhifəsində Paşinyana cavab olaraq yazıb:** “Dağılmış iqtisadiyyat və bunun nəticəsi olaraq zəifləmiş ordu şəraitində günahkarlıq prezumpsiyasının nəticəsi olaraq nəinki Dağlıq Qarabağ Azərbaycanın tərkibinə geri qayıdacaq, Ermənistan özü də ”Qərbi Azərbaycan"a çevriləcək. Necə ki, rəsmi İrəvanla danışıqlardan sonra bu günlərdə Əliyev təhdid edir" (Virtualaz.org).

Digər tərəfdən də “Daşnaksütyun”-Paşinyan qarşıdurması güclənir. Partiyanın xüsusi komissiyasının əlaqələndiricisi və sabiq iqtisadi inkişaf naziri Artsvik Minasyan keçirdiyi mətbuat konfransında yeni hökumətin apardığı daxili və xarici siyasəti sərt tənqid edib. AzərTAc xəbər verir ki, “Daşnaksütyun” Paşinyanı ölkənin müdafiə və təhlükəsizlik problemləri ilə məşğul olmamaqda, xüsusən Dağlıq Qarabağ münaqişəsi ilə yetərincə maraqlanmamaqda ittiham edib. Minasyan baş naziri keçmiş prezident Levon Ter-Petrosyanın siyasi xəttinin davamçısı adlandırıb. Onun sözlərinə görə, Qarabağ problemi həll olunmadan, Ermənistanın iqtisadi inkişafı mümkün olmayacaq.

“Daşnaksütyun” təmsilçisi əlavə edib ki, Paşinyanın texnologiyaların inkişafı ilə bağlı proqramı quru şüardan başqa bir şey deyil və Ermənistanda işsizliyi daha da artıracaq. O xatırladıb ki, rəsmi məlumatlara görə, hazırda bu ölkədə 232 min işsiz var, İKT sahəsində çalışanların sayı isə cəmi 13 min nəfərdir. “Paşinyanın ”iqtisadi inqilab" proqramının heç bir real əsası yoxdur. Hətta ehtimal olunan 5 faizlik iqtisadi artım belə bu planı həyata keçirmək üçün kifayət deyil. Proqramın parlamentdəki dar çərçivədə hazırlanması da ciddi şübhələr yaradır. Halbuki ölkənin iqtisadi həyatında bütün siyasi qüvvələrin rəyi nəzərə alınmalıdır", -deyə Minasyan əlavə edib.

Başı ölkəsindəki problemlərin həllinə qarışmış Paşinyanın Dağlıq Qarabağdakı separatçıları danışıqlarda tərəf kimi tanıtmaq cəhdi bir tərəfdən məsuliyyəti bölüşdürməyə hesablanıbsa, digər tərəfdən iki cəbhədə döyüşməyin mümkünsüzlüyündən ortaya çıxan qənaətdir. N.Paşinyan kimi təcrübəsiz birisi təbii ki, həm ac-yalavac ermənilərin qarnını doyurmaq, həm daxildəki “köhnə qurdlar”ın öhdəsindən gələ bilmək, həm də Azərbaycan dövlətinin qarşısında dayanmaq iqtidarında deyil.

**“Regiondakı geosiyasi dəyişikliklər Azərbaycana Qarabağ probleminin həlli üçün müxtəlif imkanlar aça bilər”. Bu sözləri axar.az-a prezident İlham Əliyevin Real TV-yə müsahibəsində Dağlıq Qarabağla bağlı çıxışını şərh edən Azərbaycanın keçmiş xarici işlər naziri Tofiq Zülfüqarov deyib. Sabiq nazir prezidentin müsahibəsində Qarabağ danışıqları ilə bağlı iki məqama xüsusilə diqqət çəkib:** “Birincisi, prezident danışıqlar prosesini Azərbaycanın niyyətli siyasətini əks etdirən bir hadisə olaraq qiymətləndirdi. Bu fikirlər birmənalı hazırkı real vəziyyəti əks etdirir. Belə ki, Azərbaycan dövlət başçısı təəssüflə vurğuladı ki, beynəlxalq qanunlar işləmir və hər bir məsələni ən son məqamda güc həll edir. Bu xüsusda cənab prezidentin Qarabağ məsələsinə aid olan çıxışının ikinci hissəsi - Azərbaycanın güclü olması faktoru və bunun gec-tez ərazi bütövlüyü və suverenliyimizin bərpa olunmasında mühüm rol oynayacağı diqqəti cəlb edir. Hesab edirəm ki, bu əsas məqama daha çox diqqət yetirməliyik, çünki güc amilinin həmişə gündəlikdə olacağına təsadüfən vurğu edilmədi. Danışıqlar prosesi davam edir və Azərbaycan bu meydanda sülhməramlı və konstruktiv mövqeyini nümayiş etdirir. Ancaq danışıqlar yalnız hər iki tərəfin zəhməti nəticəsində real nəticələrə gətirib çıxarır. Ermənistanın konstruktiv mövqe nümayiş etdirmədiyi danışıqlardan isə real nəticə gözləmək mümkün deyil”.

**T. Zülfüqarov müsahibədə Qarabağ məsələsinin həlli ilə bağlı verilən mesajlara və xüsusilə vurğu edilən nüanslara da işıq salıb:** “Dövlət başçısının da vurğuladığı kimi, regionda çox müxtəlif mürəkkəb proseslər cərəyan edir. Baxın, Ermənistanla əlaqədar hansısa geosiyasi dəyişikliklər istisna olunmur. Bu, indiki ərəfədə əsas məsələdir. Digər tərəfdən, Qərblə Rusiya arasında gərginlik - müxtəlif bölgələrdə bu və ya digər şəkildə rəqabət artır. Buraya dünyada gedən bir çox prosesləri də əlavə etmək olar. Bütün bu geosiyasi dəyişikliklərin bu və ya digər şəkildə Qarabağ mövzusuna təsir göstərəcəyini istisna etmirəm. Düzdür, indi konkret nəsə demək çətindir, ancaq regiondakı geosiyasi dəyişikliklər Azərbaycana Qarabağ probleminin həlli üçün müxtəlif imkanlar aça bilər. Əsas məsələ ondan ibarətdir ki, bu imkanlar Azərbaycanı siyasi, iqtisadi və hərbi cəhətdən daha güclü edir və imkanları daxilində öz xeyrinə olan siyasət həyata keçirməyə imkan verir”.

**Dağlıq Qarabağın erməni icmasının danışıqlarda iştirakına nail olmaqla Nikol Paşinyan kompromis çərçivəsində güzəştlər barədə məsuliyyəti Qarabağla bölməyə çalışır. Bunu isə Strateji Tədqiqatlar İnstitutunun direktoru Sergey Markov deyib.** “Görünür, Paşinyan necə güzəşt edəcəyini anlamır. O, bir tərəfdən kompromis və güzəştlərə hazırdır, ancaq bütün məsuliyyəti üzərinə götürməyə qorxur. Hətta Qarabağ klanının nümayəndələri Serj Sərkisyan və Robert Köçəryan belə güzəştlər üçün siyasi məsuliyyəti öz üzərlərinə götürməkdən qorxurdular. Qarabağlılar üçün yad olan və aylardır torpaqları qaytarmağa hazırlaşmaqda ittham olunan Nikol Paşinyan həm də Qarabağ klanının siyasi rəqibidir” - ekspert qeyd edib.

**Ümumiləşdirsək, Ermənistanın təcrübəsiz hökumət başçısı növbəti aprel döyüşlərinə zəmin hazırlayır. Elə rus ekspert də işğalçı ölkənin manevr imkanlarının tükəndiyini söyləyir. Markov deyib ki, Bakının razılığı olmadan mövcud “Ermənistan+Azərbaycan” formatından başqa heç bir formatdan söhbət belə gedə bilməz:** “Ermənistanda siyasi turbulentlik və seçki dövrü başa çatdı. Bunlarla İrəvan danışıqlar prosesini dondurmağına haqq qazandıra bilirdi. Artıq bu cür şərait yoxdur. Əgər vəziyyət dəyişməsə, hərbi əməliyyatların bərpası ehtimalı güclüdür”.

**Azərbaycanın tanınmış siyasi şərhçisi Tofiq Abbasov isə erməni baş nazirin ziddiyyətli açıqlamalarını “Yeni Müsavat”a şərh edərkən bildirdi ki, Paşinyan çarəsizlikdən və qorxudan vahid xətt yürüdə bilmir:** “O, proses əsnasında daim manevr etməyə məcburdur, halbuki onun hərəkətləri manevr deyil, təsadüfi yerdəyişmələr anlamına gəlir. Hazırda Paşinyan anlayır ki, arxası bir o qədər də güclü və etibarlı deyil, ona görə də ziqzaqvari hərəkətlərə yer verir. Lakin belə gedişlərlə o, heç vaxt sabit kurs yeritməyə nail olmayacaq. Çünki dövlət idarəçiliyi üçün labüd, zəruri bazası yoxdur”.

**T.Abbasov qeyd etdi ki, N.Paşinyan indi iqtisadi proqramını təmtəraqla üzə çıxarıb parlament müzakirələrinə qərar verib. Lakin ölkə maddi baxımdan tam hazırsızdır və belə olduqda yenə də özü üçün yeni sahib, yəni ianəverən axtarışındadır. Paşinyanın təhdidlərinə baxmayaraq, Ermənistanda hakimiyyətin Qarabağ güzəşti ilə şantaj edilməsinə gəldikdə, politoloq maraqlı fikirlər söylədi:** “Şantaj erməni siyasətinin ənənəvi instrumentidir və ondan heç vaxt ayrıla bilmir. Buna görə də onların qondarma məmləkəti daim çəkiclə zindan arasında balans edir. Bu çox təhlükəli və bədbəxt taledir”.

**Perspektivlərdən bəhs edən T.Abbasov bildirdi ki, Ermənistanda problemlərin köklü həllinə aparan yol Qarabağ münaqişəsinin ədalətli nizamından keçir:** “Artıq bunu dərk eləməyin vaxtıdır. Lakin erməni məfkurəsi buna nə dərəcədə hazırdır? Məsələ də bundan ibarətdir...”

Xatırladaq ki, ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Bolton ötən il Ermənistanda olarkən İrəvan üçün xilas yolunu nişan vermişdi. O, Ermənistanı tarixi şablonlardan əl çəkməklə inkişafa nail olmağa çağırmışdı. Bundan əlavə, Bolton 2018-ci ilin dekabrında keçiriləcək parlament seçkilərindən sonra Qarabağ məsələsində qəti addımların atılacağı barədə anons etmişdi. Paşinyan isə əvəzində demişdi ki, Con Boltonun onun adından danışmağa haqqı yoxdur. Qarabağla bağlı sərt ritorikaya üstünlük verməklə sələflərinin səhvlərini təkrarlayan erməni baş nazir hazırda odla-su arasında qalıb. Başqa sözlə, o, “nə yardan doyur, nə əldən qoyur”. Bu siyasət isə bölgədə müharibəni alovlandıra bilər.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 36 (7206) 15 fevral 2019




# Doğru yaşamın gerçək üslubu

**Cümə söhbətləri**

**Bismilləhir-Rahmənir-Rahim! Allaha həmd olsun ki, bizlərə özümüz haqqında, mövcudluğumuz haqqında düşünmək, fikirləşmək səadətini nəsib edib. Allaha şükür olsun ki, bizi Peyğəmbər (s) və onun Əhli-Beyti (ə) ilə tanış olmaq səadətinə çatdırıb.**



Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

## İblisin (lən) daxilimizdəki müttəfiqi

Mövzumuz insanın mənəvi təkamülü zamanı maneə törədən amillərlə bağlı idi. Danışdıq ki, bir tərəfdən həvayi-nəfs öz təsirini göstərir, digər tərəfdən dünya vurğunluğu öz təsirini qoyur, üçüncü tərəfdən şeytanın (lən) vəsvəsələri təsirini göstərir. Bunlar bir-birinə bağlı haldadır.

Bizim nəfsani istəklərimiz olmasa, şeytanın (lən) gəlib bizə təsir göstərməsi imkansız olar. Dünyaya bağlantımız olmasa, nəfsani istəklərimiz də meydana gəlməz. Əslində bu üçü bir-birinə ciddi şəkildə bağlıdır. Xüsusilə nəfsani istəklər və dünyaya vurğunluq bir-birinə bağlıdır və şeytanın (lən) vəsvəsəsi də bu vurğunluq və bağlılıq olan zaman, nəfsani istəklər işə düşən zaman baş tutar. Şeytan (lən) gəlib fürsətləri dəyərləndirir, toxumlarını əkir, ondan sonra da istədiyi nəticələri də əldə etməyə çalışır. Bunları daima diqqətdə saxlamaq lazımdır ki, insan qəflətə düşməsin.

## İmanımızın diri qalmasına mane olan amillərlə necə mübarizə aparaq?

Sual budur ki, necə edək ki, bu üç amil qarşısında duruş gətirə bilək? İnsan hansı bir cəhətini, hansı istiqamətini artırmalıdır, gücləndirməlidir ki, müqavimət qabiliyyəti artsın? Özümüzün hansı cəhəti ilə gərək xüsusi olaraq məşğul olaq?

Əllamə Misbah Yəzdi cənablarının bu mövzuda fərqli baxışlar ortaya qoyur və buyuruşundan belə başa düşülür ki, lokal və bircəhətli reseptlər çıxış yolu deyil. Yəni ümumi olaraq, insanın bu üç istiqamətdə problemlərdən qurtulması üçün deyə bilərik ki, gərək tanıması yuxarı olsun, əqidəsi möhkəm olsun, dünyagörüşü mükəmməl olsun. Digər tərəfdən, gərək fiqhi və əhkami məsələlərə diqqət etsin. Üçüncü tərəfdən əxlaqi fəzilətlərə yiyələnməyə çalışsın.

Bunlar özü-özlüyündə yaxşı səslənsə də, necə və hansı ardıcıllıqla insan bunlara nail ola bilər? Həyat bizi gözləmir. İnsan əqaidi məsələlərini artırana qədər, əxlaqi və əhkami məsələləri onu gözləyir. İnsan bir ömür zamanını sərf edə bilər ki, əqaiddə, dünyagörüşündə, tanımada bir mərhələyə çatsın. Amma bu getdiyi zaman, insanın digər məsələləri kənarda qala bilər. Üstəlik, hər kəsin tutumu və qavraması o qədər deyil ki, bütün bunlarda ən ali mərtəbəyə yüksəlsin.

Əxlaqi mövzulardan başlayanda da, insan bir mərhələyə yetişir ki, nəyin əxlaq olmasını ayırd etməkdə çətinlik çəkir. Bunun üçün gərək bilgisi, tanıması, mərifəti olsun. Başa düşülən budur ki, bunların hər hansı birindən başlayıb, digərlərinə doğru getmək kimi bir həll yolu yoxdur. Bu, məsələnin bir tərəfidir.

## İnsan öz mövcudiyyətinin 3 əsas bünövrəsini paralel təmin etməlidir

Ümumi götürəndə, insanın varlığı üç bölümdən təşkil olunub.

Birincisi - əql qüvvəsi, düşüncə, təfəkkür, axtarmadır ki, insan gərək buna çarə tapsın, bunu ödəsin.

İkinci - insanın hissləri, duyğuları, atifələridir. Gərək bunlar da ödənsin.

Üçüncü - insanın, cismani, fizioloji ehtiyaclarının mövzusudur ki, gərək bunlar da təmin olunsun. Aclıq, susuzluq, istilik, soyuqluq, digər təbii ehtiyaclar həll olmalıdır.

Belə deyil ki, insan gərək əqli müstəvidə bir yerə çatsın, sonra digər məsələləri qaydasına qoysun. Atifə, duyğular, hisslər, fiziki ehtiyaclar gözləmir. Əqli də tam lazımi vəziyyətə çatmayana qədər, hisslər də həmişə doğru yerə aparmır, ehtiyaclar da həmişə doğru təmin olunmur. İnsanın həyatının içərisində bu üçü də paralel olaraq gündəmdədir. Ağılın, hisslərin, duyğuların, həm də cismani ehtiyacların gündəlik tələbatı var. Göründüyü kimi, vəziyyət çox da sadə deyil.

## Qurani-Kərimin qurtuluş üslubu

Əllamə Misbah Yəzdi cənabları bu mövzuda Qurani-Kərimin üslubuna nəzər salır. İslam inancının bu mövzuda mühüm, bünövrəvi təqdimatı Quranadadır. Qurani-Kərim bu mövzuda bölgü aparmır. Belə deyil ki, əvvəl bir hisslər gəlir ki, öncə ağılı gücləndirilsin, sonrakı hisslər - hisslərə yönəlsin, sonrakı hisslər gəlib cismi ehtiyaclar mövzusunu əhatə etsin. Qurani-Kərimdə hamısı yanaşı, bəzən bir ayədə biri bir qədər çox, digər ayədə o biri məsələ bir qədər qabarıq yer alır.

Başa düşülən budur ki, bizim bu vəziyyətdən götürə biləcəyimiz ən böyük ibrət və dərs budur ki, Qurani-Kərimin üslubunu əsas kimi qəbul edərək, bütöv varlıq kimi inkişafımızın üzərində düşünməliyik. Quranla tanışlıq, Quranla ünsiyyət və Quranın buyuruşları, ayələri ilə tanışlığı həm də buna görə tövsiyə olunur ki, insan Quranla tanış olan zaman bu mövzularda bu və ya digər formada hissə-hissə, müəyyən dərəcədə qidalanma alır.

Quranın ən praktik formada izahını verən, çatdıran Peyğəmbər (s) və onun pak Əhli-Beytidir (ə). İnsanın gün ərzində Quranla təmasda olmasının bu qədər tövsiyə olunmasının başlıca səbəblərindən biri budur ki, Qurani-Kərim bu mövzularda müxtəlif həcmlərdə, müxtəlif dozalarda çatdırışlar edir, insanda ayılmalara gətirib çıxardır.

Belə bir nəticələndirmə edə bilərik ki, biz günümüzü elə tənzimləməliyik ki, bütün istiqamətlərimiz, bütün cəhətlərimiz, bütün mövzularımız qidalana bilsin. İnsan bədənində belə deyil ki, ilk öncə ürək işə salınır, sonra beyin, sonra digər orqanlar və s. Bədən bir bütöv şəkildə qidalanır. Bu mənada bizim bütün mövcudiyyətimiz eyni anda qidalanmalıdır və Qurani-Kərimin bizə təqdim etdiyi üslub da budur.

## Qurani-Kərim nə üçün nazil olub?

"Nəhl" surəsinin 44-cü ayəsində Rəbbimiz buyurur: "(Onları) aydın dəlillər (möcüzələrlə) və ibrətamiz səma kitabları ilə (göndərdik) və sənə də bu zikri (Quranı) nazil etdik ki, insanlara onlara nazil olanı açıqlayasan və bəlkə düşündülər".

Ayədə mühüm nöqtələrə işarə olunub. Vurğulanır ki, Allah Təala Qurani-Kərimi Peyğəmbərimizə (s) nazil edib və Peyğəmbərin (s) missiyası Quranı insanlara çatdırmaq və aydınlatmaqdır.

Bəzən belə fikirlər olur ki, Quran özü bir mətn olaraq bəs edər. Rəbbimiz Özü açıqlayır ki, belə bir məsələ yoxdur. Peyğəmbərin (s) və onun (s) Əhli-Beytinin (ə), eləcə də ümumən o irsdən bəhrələnən alimlərin, üləmanın vəzifəsi və məsuliyyəti - Qurani-Kərimin mövzularını açıqlamaqdır.

İslamın ruhunu, çatdırışlarını zamanına, məkanına, şəraitinə görə açıqlamaq missiyası var. Quranın nazil olmasının və açıqlanmasının hədəfi isə insanların təfəkkürünü artırmaqdır. Hədəf budur ki, biz yaxşı düşünək, təfəkkür edək.

Təəssüflər olsun ki, praktikada həm Quranla tanışlıq çox aşağı həddədir, həm də Quranla tanışlıq elə təqdim olunur ki, sanki bütün məsələlər bu tanışlıqla bitir. Guya ümumi tanışlıq bəs edir, təfəkkür etməyə, düşünməyə elə də ehtiyac yoxdur.

Amma Quran çatdırılır, aydınlaşdırılır ki, insanın təfəkkürü artsın.

## Mübarək ayədən əxz olunan müddəalar

- Ayədən başa düşülən ilk mövzu budur ki, Qurani-Kərimim Allah Rəsuluna (s) nazil olması bəyan edilir. Yəni, Quranın İlahi mənbəyi və Rəsuli-Əkrəmin (s) məqamı vurğulanır.

- İkinci mühüm məsələ budur ki, Quran - xatırlama Kitabıdır. Quranın missiyası - xatırlama, yada salmadır. Bizim kimliyimizi, nə üçün yaradıldığımızı, nə üçün yaşadığımızı, sonra nə olacağını bu Müqəddəs Kitab bizə xatırladır.

- Ayədən anlaşılır ki, "zikr" - Quranın adlarından biridir.

- Dördüncü mühüm nöqtə budur ki, Həzrət Rəsulallahın (s) Qurani-Kərimi insanlar üçün açıqlamaq vəzifəsi, mükəlləfiyyəti və missiyası var.

- Ayədə həm də vurğulanır ki, Quran bütün insanlara açıqlanmalıdır. Quranın müxatəbi - danışıq tərəfi - dünyanın bütün hər yerində və hər zamanında yaşayan insanlardır. Bəzən belə yanlış təsəvvür olunur ki, Qurani-Kərim tək müsəlmanlara çatdırılmalıdır. Rəbbimiz isə bəyan edir ki, Quran insanlıq adına kim varsa, hamısına ünvanlanıb. Həzrət Peyğəmbərin (s) missiyası var idi ki, Quranı hamıya çatdırsın.

- Daha bir nöqtə budur ki, əziz Peyğəmbərimizin (s) Quranla bağlı daha üstün və daha geniş anlayışı var. Çünki, yalnız belə anlayışı olan kəsə onu çatdırmaq və aydınlatmaq missiyası verilə bilər. Peyğəmbərimizin (s) Qurandan olan həqiqətlər haqqında olan bilgisi və əhatəsi, insanların hamısından yuxarıdır və daha dərindir.

- Daha önəmli nöqtələrdən biri budur ki, biz insanların, Peyğəmbərimizə (s) və Peyğəmbər (s) irsinə qapı olan Əhli-Beytə (ə) müraciət etmək vəzifəmiz var. Biz onların buyuruşlarına müraciət edərkən, əslində həmin Quranın aydınlatmasına, izahına, ruhunun çatdırılmasına nail oluruq.

- Quranın nazil olmasında hədəf isə budur ki, bəşəriyyət təfəkkür etsin, insanların düşünməsi artsın. Bu bilgilənmə nəinki məhdudlaşmaya aparmır, əksinə - insanın bilgilənməsi, İslamla tanışlığı onun təfəkkürünün inkişafına aparıb çıxarmalıdır.

## Quran insanları daha çox təfəkkürə səsləyir

Bizim bu toxunulanlardan götürə biləcəyimiz dərslərdən biri budur ki, hər vaxt ki, İslamla bağlı mövzulara fraqmental baxıldısa - o zaman yanlışlığa düşüldü. Hər vaxt ki, lokal baxıldı, bir hissəsi əsas götürüldü - o zaman problem yarandı. Deməli, anlaşılan budur ki, insanın mövcudiyyətini əhatə edən bütün amillərin təmini bir yerdə olanda, bu, lazımı nəticəni verir. Bunların biri olub, digəri olmayanda şeytanın (lən) vəsvəsələri də, həvayi-nəfs də, dünyaya vurğunluq da öz işini görə bilir.

Biz özümüzü tanısaq, bu mətləblərə varsaq - vəsvəsələri tənzimləyə bilərik, həvayi-nəfsimizi nəzarətə ala bilərik, anlaya bilərik ki, dünyaya vurğunluqla bir yerə gedib çıxmaq olmaz. Amma yalnız tanımaq da bəs etmir. Tanımanın yanında hisslər, duyğuları təmin edən həqiqi eşq, sevgi, məhəbbət olmalıdır. Xüsusən də duyğular mövzusu tanımasız olanda, çox pis nəticələrə aparıb çıxarda bilər. Çünki, bir gün gəlir ki, valideyn yalnız duyğularla davranmağının mümkün olmadığını anlayır. Elə bir mərhələ gəlib çatır ki, övladı ilə münasibətində yalnız duyğular əsasında rəftar etmək alınmır. Duyğular hər zaman güzəşt tələb edir, amma bəzən valideyn övladın xoşu gəlməyən bir mövzunu deməli olur.

Üçüncü tərəfdən də əməllər həm əhkami müstəvidə, həm də əxlaqi müstəvidə doğru tənzimlənməlidir. Bunlar hamısı bir yerdə olduğu zaman, insan Qurani-Kərimin bəşəriyyətə təqdim etdiyi doğru yaşam üslubunu yaşatmış olur.

## Tanıma və niyyətin diriliyi

Bəhslərdən bu nəticəyə çatdıq ki, imanımızın diri qalması üçün gərək tanımamız və niyyətimiz diri olsun. Bunlara mane olan amillərin həvayi-nəfs, dünyaya vurğunluq və şeytanın (lən) vəsvəsələri olduğunu bildik. Bunların həlli də budur ki, biz gün ərzində, həyatımızın hər anında diqqətli olaq.

Hər hansı bir mövzu ilə və ya qısamüddətli hər hansı həll ilə bütün mövzularımızı həll edə bilmərik. Gərək həyatımızın hər gün dəyərləndirək, bu müstəvilərdə bilgilənməyə, çalışmağa səy göstərək, Qurani-Kərimin həqiqətləri ilə, Peyğəmbər (s) və onun pak Əhli-Beytinin (ə) bu mövzularda aydınlatmaları ilə tanış olaq və bu mövzular üzərində çox təfəkkür edək.

**Allahım, aqibətlərimizi xeyirli et!**

**Allahım, bizləri Qurani-Kərim həqiqətləri ilə bilgilənənlərdən qərar ver!**

**Allahım, bizə həyatımızı Peyğəmbər (s) və onun pak Əhli-Beytinin (ə) aydınlatmaları ilə nizamlamağı və təfəkkür etməyi nəsib et! Amin!**

YENİ MÜSAVAT
Son səhifə
N 36 (7206) 15 fevral 2019



# Hücumçulardan qorunmaq üçün konserv almaq tapşırıldı

Amerikanın Alabama ştatındakı Valley şəhərindəki məktəbin rəhbərliyi uşaqlardan konserv bankası gətirməyi xahiş edib. Onun bildirdiyinə görə, bu, hücumçulardan qorunmaq üçün lazımdır. Konserv qutusunun çəkisi təxminən 200 qram olmalıdır. Təxmin edilir ki, bu qutular sinif otağında saxlanılacaq və məktəbə hücum olarsa, bundan silah kimi istifadə ediləcək. Məktəbin direktoru Priscilla Holli hesab edir ki, bu cür silah məktəblilərə özünümüdafiə hissi aşılayacaq. Bundan başqa, mümkün olan hücuma qarşı müəllimlər şagirdlərə barrikada qurmağı da öyrədəcək. Bu zaman onlar sinfə cinayətkar daxil olarsa, özlərini qoruya biləcəklər. Yox, əgər cinayətkar bütün hallarda məktəbə daxil olubsa və rəhbərlik məktəbliləri evakuasiya etməyi çatdırmayıbsa, bu halda onlar hücumçulara dərsliklər vasitəsilə hücum edə bilərlər. Holli bildirib ki, konserv qutuları lazım gəlməsə, ilin sonunda onları məktəbin yeməkxanasına təhvil verəcəklər. Məlumatda qeyd edilir ki, videynlərin böyük qismi məktəb rəhbərliyinin bu addımını dəstəkləyir.

# Qadın 500 kilo idi, arıqladı



**500 kilo ağırlığındakı misirli Eman Ahmed dünyanın ən ağır qadını sayılır. Hazırda onu müalicə etmək üçün Hindistana gətiriblər. Yahoo News-un xəbərlərinə görə, əməliyyatdan sonra Emana xüsusi dieta təyin ediblər. Növbəti 25 gün ərzində qadın ancaq maye şəklində qida qəbul edəcək. Gözlənilir ki, son nəticədə qadın 50 kilo çəki itirəcək.**

Bariatrik əməliyyat misirli qadının çəkisini daha 150 kiloqram azaldacaq. Bundan sonra qadın beş ay boyunca hindli mütəxəssislərin nəzarəti altında fizioterapiya ilə məşğul olacaq. Həkimlər ümid edirlər ki, müalicənin sonuna yaxın qadın oturmağı və müstəqil şəkildə qida qəbul etməyi öyrənəcək.

2016-cı ilin dekabrında Hindistanın xarici işlər naziri Suşma Svarac Emana viza almaqda kömək etdi. Misirli qadın uzun illər yataqdan qalxmırdı və şəxsiyyətini təsdiqlətdirmək üçün səfirliyə gedə bilmirdi. Həkim Svaraca twitter vasitəsilə müraciət edərək, sənədləşməyə köməklik göstərməsini xahiş etdi.

Orqanizmdəki maddələr mübadiləsinin pozulması və zülalın disfunksiyası ucbatından 36 yaşlı misirlinin bədənində çoxlu miqdarda yağ var. Eman Ahmedin 11 yaşı olanda 500 kiloya çatıb. Elə həmin vaxtdan o, yerindən tərpənə və evindən çıxa bilməyib.

# Ərini satışa çıxardı...



**Teresa Turner adlı qadının yüksək səslərə dözə bilməmə, çox narahat olma kimi özəllikləri olan “Mizofoni” adlı xəstəliyi var idi. Teresa insanların yüksək səslə yemək yemələrinə dözə bilmirdi. Əri isə onu daha da hirsləndirmək üçün yemək yeyəndə səs-küy çıxaran birinin videosunu dəfələrlə izləməyə başladı. Buna cavab olaraq həyat yoldaşı da onun fotosunu sosial şəbəkədə paylaşaraq, ərini satışa çıxardı.**

“Belə bir video tapdım. Teresa dayanmağımı söylədi. Videonu dəfələrlə izləməyə başladım. Öncə yoldaşım yuxarı mərtəbəyə çıxdı, sonra da satış həyata keçirilən bir facebook səhifəsinə elan yazaraq, məni satışa çıxardı”.

Teresa ərinin bir şəklini paylaşaraq, yaxşı özəlliklərini vurğuladığı cümlələri belə sıralamışdı: “Əsəblərimi korlamasına bundan artıq icazə verməyəcəm. 33 yaşındakı bu ərimi isə satıram. Amma pul istəmirəm, tamamilə havayıdır. Ev və tualet tərbiyəsini tamamlayıb, birinci sinif bir ərdir”.

Amma zarafatla etdiyi bu paylaşıma qadınlar eyni reaksiyanı vermədi. 1 saat ərzində sözügedən paylaşımın altında 300-ə yaxın subay qadın Robu almaq istədiyini yazdı. Teresa isə bu nəticəni görüb aşağıdakıları yazdı: “Bizim axmaq zarafat anlayışımız insanları güldürdüyü üçün çox xoşbəxtəm”.




**QOÇ** - Təəssüf ki, ixtiyarınızda olan bu gün hansısa ciddi müvəffəqiyyətə nail olacağınız gözlənilmir. Ələlxüsus da saat 15-18 arası bəzi xoşagəlməzliklərlə baş-başa qala bilərsiniz. Daha çox neytral olun.

**BUĞA** - Bu təqvimi xoş ovqatla qarşılasanız, planlarınızın əksəriyyəti qaydasına düşməyə başlayacaq. İstirahətdən daha çox əlaqələri dərinləşdirin. Axşama doğru işlə bağlı təkliflərə laqeyd qalmayın.

**ƏKİZLƏR** - Planetlərin gərgin qarşıdurmasına təsadüf edən bu təqvimin sizə əhəmiyyəti böyük olacaq. Çoxsaylı işgüzar görüşlər, perspektivli və yeni əlaqələr istər fəaliyyət zəminində, istərsə də qarşılıqlı münasibətlərdə sizə böyük səmərə verəcək.

**XƏRÇƏNG** - Yaxşı olar ki, əsas vaxtınızı istirahətdə keçirəsiniz. Əks təqdirdə, cəhdlərinizin boşa çıxması, uğursuz sövdələşmələr, səhhətlə bağlı narahatçılıq və s. kimi mənfi fəsadlar baş verə bilər. Bir az təcrid olunun.

**ŞİR** - Xırda mübahisələri nəzərə almasaq, bu tarix sizin üçün normal bir zaman kəsiyi olacaq. Ədalətsiz insanları görəndə, haqsızlığın şahidi olanda üsyankarlıq göstərməyin. Əksinə, təmkin nümayiş etdirməklə öz ideyalarınızı tədricən onların beyninə yeridin.

**QIZ** - Yolayrıcında qalmağınız yetər. Gələcəyinizi, taleyinizi düşünürsünüzsə, konkret addımlar atın. İnsanlarla umu-küsüləri bir kənara qoyun. İndi konfliktlərə girişməkdənsə, qarşılıqlı münasibətləri mülayimləşdirmək daha sərfəlidir.

**TƏRƏZİ** - Bu dəyişkən təqvimdən qorxmağınıza lüzum yoxdur. Çünki sizin kimi romantik şəxslərə bu ərəfədə heç bir zərər dəyməyəcək, üstəlik, aktivləşdiyiniz indiki dövrdə şanslarınız da artacaq.

**ƏQRƏB** - Təzadlı gündür. Proseslərin inkişafı gah müsbət, gah da mənfi istiqamətə səmt ala bilər. Bu səbəbdən də yaxşı bələd olmadığınız şəxslərlə işbirliyi yaratmaqdan, riskli pul sövdələşmələrində iştirak etməkdən vaz keçin.

**OXATAN** - Bütün vacib iş və planlarınızı günün ilk yarısında həyata keçirməyə çalışın. Çünki günün yalnız bu hissəsi ümumi işlərinizdə aktivlik mərhələsi olacaq. Ulduzlar daşınmaz əmlak alış-verişindən uzaq olmağınızı məsləhət görür

**OĞLAQ** - Göy qübbəsi yuxusuzluğunuzdan, həmçinin iştahasızlığınızdan şikayətlənir. Bunun qarşısını almaq üçün bütün qüvvənizi səfərbər etməlisiniz. Əgər hansısa uğursuzluqla rastlaşırsınızsa, bunun səbəbini başqalarında deyil, özünüzdə axtarın.

**SUTÖKƏN** - Bürcünüzün hakimiyyətinin sonuna yaxınlaşdığı bu ərəfədə mübahisə və konfliktlərdən, eləcə də yeni işlərə başlamaqdan vaz keçməlisiniz. Daha çox mənəvi rahatlığınızı təmin edin.

**BALIQLAR** - Saat 14-ə qədər ümumi işlərinizdə passivlik hökm sürəcək. Həmin müddətdə riskli işlərdən uzaq olmalı, yeni müqavilə və təkliflərdən boyun qaçırmalı, eləcə də səhhətinizlə məşğul olmalısınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Absurd istəkli narkoman



İtaliya məhkəməsi Ostiya şəhərinin 23 yaşlı sakinini həbs edib. Buna səbəb onun əlində 100 qram həşişlə supermarketə gəlib, onu elektron tərəzidə çəkdirmək istəməsi olub. Hadisənin baş verdiyi Carrefour mağazalar şəbəkəsi isə hadisə yerinə polisləri çağırıb. Onlar görüblər ki, gənc oğlan heç nədən və heç kimdən çəkinmir. Əksinə, tərəvəz bölməsinə gedərək, əlindəki narkotiki elektron tərəzidə çəkməyə cəhd göstərib. Polisə ifadəsində isə bildirib ki, o, həşişi parkdan tapıb. Evində elektron tərəzi olmadığı üçün marketdəkilərdən istifadə etməyə qərar verib. Asayiş keşikçiləri isə deyiblər ki, oğlandakı həşiş 600 doza üçün yetərli olub. Onun maya dəyəri isə 1000 avroya bərabərdir.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.755